


unibank

# Illik Hesabat 2011




# MÜNDƏRİCAT:

Müşahidə Şurası sədrinin müraciəti ........ 8
İdarə Heyəti sədrinin müraciəti ........ 12
Azərbaycan iqtisadiyyatı 2011-ci ildə ........ 16
Azərbaycanın bank sektoru ........ 22
Beynəlxalq reytinqlər ........ 25
Səhm və istiqrazların buraxılışı ........ 28
Pərakəndə biznes ........ 32
Xidmət şəbəkəsi ........ 39
Korporativ biznesə xidmət ........ 42
İnsan resursları ........ 46
Korporativ məsuliyyət ........ 50
Törəmə müəssisələr ........ 56




## Qızıl sikkələr

Bizans İmperiyası zamanı Azərbaycan ərazisində yayılan qızıl solid (1), 450-476-cı illər. Əməvilər və Abbasilər sülalələrin qızıl dinarları (2,4), 661-695-ci illər. Səfəvilər dövlətləri tərəfindən zərb olunan qızıl əşrəfillər (3,5), 1502-1524-cü illər.

# Müşahidə Şurası sədrinin müraciəti

## Hörmətli səhmdarlar, müştərilər və tərəfdaşlar!

Böyük məmnunluq hissi ilə "Unibank" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası sədri qismində Sizlərə 2011-ci ilin hesabatını təqdim edirəm. Bu ilki hesabatda diqqətinizi bir sıra pozitiv nəticələr və bizim üçün vacib nailiyyətlərə cəlb etmək istərdim. Əlbəttə ki, bu nəticələr ilk növbədə Azərbaycan iqtisadiyyatında baş verən müsbət trendlərlə bağlıdır.

Sabit makroiqtisadi şəraitdə bankların xidmətlərinə artan tələbat və ümumiyyətlə istehlak sektorunun yüksəlməsi maliyyə təsisatlarının fəallığı üçün yaxşı bünövrədir. Pozitiv tendensiya kimi əhali və işgüzar dairələrdə müsbət psixoloji münasibəti də aid etmək olar. İnsanları qeyri-müəyyənlik artıq narahat etmir, maliyyə bazarı və bank sektoru ilə bağlı suallar daha qorxutmur. Bu isə bazar iqtisadiyyatının inkişafının hərəkətverici qüvvəsi olan istehlak sektorunu stimullaşdırır. Fərdi istehlakla bərabər, 2011-ci ildə kiçik və orta biznesdə müşahidə olunan işgüzar fəallıq, bankları son iki ildə apardıqları konservativ kreditləşdirmə modellərindən aktiv kreditləşdirmə strategiyalarına keçməyə məcbur etdi.

Bir tərəfdən bu amil "Unibank" üçün bank xidmətləri bazarında qazandığı üstünlükləri daha çox sayda müştərilərə nümayiş etmək imkanı idi. Digər tərəfdən isə Bankımız üçün ötən il rəqabətin artması ilə səciyyələndi.

Bildiyiniz kimi, rəqabət tələbat və təklifin tarazlığını təmin edə biləcək bazarın ayrılmaz bir hissəsidir.

Amma şəxsən mənim üçün rəqabət kredit portfelinin genişlənməsi hesabına aktivlərin nəyin bahasına olsun artması deyil. Ən azı ona görə ki, bank sisteminin inkişaf vektoru tamamilə dəyişib. Həcmin nəyin bahasına olursa-olsun artırılması uğrunda mübarizə, gəlirlilik və risklərin idarə olunmasında diqqətin cəmlənməsi ilə əvəz olunub. Bu da daha çox faydalı fondlaşdırma, risklərin doğru idarə edilməsi, xidmət nöqtələrin və kanalların inkişafı, müştərilərin artması deməkdir.

Zənnimcə bu məqsədlərə "Unibank" heyəti 2011-ci ildə tam nail ola bildi.  Artıq etiraf olunur ki, "Unibank" mövqelərinin möhkəmlənməsi eyni dərəcədə ambisiyalı və düşünülmüş biznes-modelə əsaslanır. Xarici və yerli bazarlardan kifayət qədər vəsaitlər cəlb olundu. Bunun üçün Azərbaycanda ilk dəfə olaraq konvertləşdirilən istiqrazlar buraxıldı. İqtisadiyyatın qeyri-neft sahələrinin və fərdi sahibkarların kreditləşdirməsi davam etdirildi. Və nəhayət, "Unibank" ölkənin qabaqcıl riteyl-banklarının üçlüyünə daxil oldu.

Sözsüz ki, məhz bu kimi nailiyyətlərin hesabına ötən ilin maliyyə nəticələri də Bank üçün uğurlu oldu. Beynəlxalq maliyyə hesabatları standartlarına uyğun mənfəət 7,111 mln. manat təşkil etdi, kredit portfeli 32% artdı, müştərilərin sayı isə ilk dəfə olaraq 200 mini ötdü. Bu və hesabatda təqdim edəcəyimiz digər göstəricilərin dinamikası ümumilikdə ölkə bank sektoru üzrə məcmu göstəricilərini xeyli üstələyir.

Sabit artan maliyyə nəticələri Müşahidə Şurası və İdarə Heyəti tərəfindən seçilən prioritetlərin doğru olmasına dəlalət edir. Əminəm ki, ölkə iqtisadiyyatı və banklar qarşısında duran yeni çağırışlara da "Unibank" adekvat və yenilikçi xidmətləri ilə cavab verəcək.

Əsas hədəfimiz – bütün Azərbaycan üçün müasir və dinamik bank təsisatı olmaqdır.

**Eldar Qəribov**
Müşahidə Şurasının sədri



## MÜŞAHİDƏ ŞURASI



Eldar Qəribov
Müşahidə Şurasının sədri



Emin Quliyev
Müşahidə Şurasının sədr müavini



Elxan Qəribli
Müşahidə Şurasının üzvü



İqor Yakovenko
Müşahidə Şurasının üzvü



Samir Balayev
Müşahidə Şurası sədrinin müşaviri



Andreas Zeisler
Müşahidə Şurasının üzvü



Julian Hilli
Müşahidə Şurasının üzvü




## Gümüş sikkələr

Azərbaycanın Makedoniyalı İskəndərin və Selevkilərin pullarına bənzədilən tetradraxma (1) və draxma (2), eradan əvvəl VII-VI əsrlər. 889-954-cü illərdə Sacilər sülalələri dövründə zərb edilən dirhəmlər (3,4).

# İdarə Heyəti sədrinin müraciəti

Əziz dostlar,

2011-ci il «Unibank» ASC-nin tarixində növbəti uğurlu il kimi yadda qalacaq. Qarşınızda olan İllik Hesabat bunu bir daha sübut edir. Müştəri sayının xeyli artımı, mənfəət göstəricilərinin müsbət dinamikası və bank xidmətləri bazarındakı payımızın genişlənməsi yeni strategiyamızın nəticəsidir. Ötən iki ili ilə bərabər, yeni strategiya qarşıdakı 2012-ci ili də əhatə edir və maliyyə xidmətlərini müştərilərə daha yaxın etməkdən ibarət olan Bankın missiyasına tam uyğundur.

Amma strategiya bizim üçün sadəcə inkişafda qalmağımız istəyi deyil, bu həmçinin inkişafın düşünülmüş sürətdə planlaşdırılması deməkdir. Məhz bu səbəbdən "Unibank" müştərilərə daha yaxın olmaq məqsədini yeni və müasir texnologiyaları hesabına təmin edərək, onlara nəinki istədikləri bank xidmətlərdən istifadə etmək, hətta bu zaman maksimum dərəcədə vaxtlarının qənaət olunmasına çalışır. Xidmət şəbəkəmizin il ərzində bir milyona yaxın müştəri müraciətlərinin qəbulu bunu artıq təsdiq etdi. Əlbəttə ki, qarşımızda qoyduğumuz kəmiyyət göstəricilərin və yaxud proqnozların sırf yerinə yetirilməsi hələ uğurlu bank olmağımıza dəlalət etmir. Biznesdə əsl uğur yalnız qazanc, mükafatlar və yaxud göstəricilərlə ölçülmür. Əsl uğur insanların birgə düşüncələri və bacarıqları, istedad və təşəbbüsləri, əmək və səyləri nəticəsində əldə etdikləri birgə nüfuzdur. Bu gün bu nüfuzu ifadə edən və Azərbaycanda ilk sıralarda olan "Unibank" brendidir. Bank ən böyük dəyəri naminə çalışır - müştərilərin etimadını doğrultmaq və onların loyallığını qazanmaq üçün. Təsadüfi hall deyil ki, Azərbaycan özəl banklarındakı müştərilərin hər yeddincisi məhz "Unibank"-ın xidmətlərindən faydalanır. Bu o deməkdir ki, yenililik, sabitlik və etibarlılıq artıq Bankımızı rəqibləri arasında fərqləndirən cəhətlərdəndir. Bu amillərə arxalanan xarici investorlar, 2011-ci ildə ölkədə ilk dəfə olaraq "Unibank" tərəfindən buraxılan və həcmi $25 milyon təşkil edən konvertasiya istiqrazlarının əsas alıcıları olmuşlar. Eyni amilləri rəhbər tutan minlərlə əmanətçilərimiz məhz "Unibank"-ın faiz dərəcələrinə etibar ediblər. Yenilikçi və etibar qazandıran alətlər sayəsində Bankımız kiçik və orta biznesinin maliyyələşdirilməsini, eləcə də nağd və təminatsız kreditləşdirmə həcmlərini artırdı. Nəticədə, Bank nəinki müasir trendlər çərçivəsində qalıb, hətta onları xeyli qabaqlayaraq, milli bank xidmətləri bazarının yüksəkmarjinal seqmentlərdə liderlərdən birinə çevrildi. Bu nailiyyətləri yüksək qiymətləndirən müştərilərlə bərabər, aparıcı reytinq agentlikləri də qəbul ediblər.

Tanınmış brend ilk növbədə məsuliyyətdir və hərçənd bu məsuliyyət yalnız ödənilmiş faizlərlə və yaxud idarə etdiyimiz vəsaitlərlə ölçülmür. Özəl bankçılıqda liderlərdən biri olaraq, "Unibank" rəqibləri arasında korporativ sosial məsuliyyət proqramları ilə də seçilir. Biz futbol üzrə milli çempionatın ilk sponsoru olmaqla, ölkədə milyonların bu idman növünə sevgisinə dəstək verdik. İdmanla yanaşı, Bankımız mədəniyyət və təhsil layihələrin inkişafına önəm verir. Onlar arasında Milli Kitab Mükafatını, ənənəvi şahmat turnirləri, tələbələr üçün təsis etdiyimiz "Unişans" təqaüdünü, kimsəsiz uşaqlara köməyimizi qeyd etmək olar. Hər bir əməkdaşımızın ürəyindən gələn bu iş davam etdiriləcək və cəmiyyətdə "Unibank"-ın rolu bundan sonra da artacaq.

İdarə Heyəti adından bütün əməkdaşlarımıza işlərinin peşəkar təşkilinə, təşəbbüskar və sadiq qaldıqlarına görə dərin təşəkkürümü bildirirəm. İstənilən biznes-məqsədlərə çata bilmək bacarıqlarını sübut edən komandamıza etibar münasibətə görə səhmdarlara, tərəfdaşlara və müştərilərə də bu uğurlu ilə görə minnətdaram. 2011-ci ildə əldə etdiyimiz nailiyyətlər təbii ki yüksəkdir, amma yeni layihələrin gerçəkləşməsi nəticəsində əldə oluna biləcək nəticələr bundan da yüksək ola bilər. Ölkəmizə, xalqımıza, "Unibank"-ın səhmdarlarına, tərəfdaşlarına, əməkdaşlarına, müştərilərinə uğur gətirən bu zirvələri yalnız birlikdə fəth etməliyik.



**Faiq Hüseynov,**
İdarə Heyətinin sədri



## İDARƏ HEYƏTİ



Faiq Hüseynov
İdarə Heyətinin sədri



Faiq Zeynalov
İdarə Heyəti sədrinin 1-ci müavini, Riteyl xidmətləri üzrə direktor



Emin Rəsulzadə
İdarə Heyətinin üzvü, Maliyyə üzrə direktor



Vaqif Qəribli
Korporativ xidmətlər üzrə direktor



Vadim Qədirov
İdarə Heyətinin üzvü, Biznesin inzibatiləşdirilməsi və dəstəklənməsi üzrə direktor



Fazil Məmmədov
İdarə Heyətinin üzvü, Risk-menecment üzrə direktor




## Mis sikkələr

Atabəylər dövründə Bişkinilər və Manqli feodal hakimləri tərəfindən buraxılan xırda dairəvi dirhəmlər (1175-1231 illər).

# Azərbaycan iqtisadiyyati 2011-ci ildə

## Ümumi Daxili Məhsul (ÜDM)

Azərbaycan iqtisadiyyatının inkişafını əks etdirən əsas göstərici - Ümumi Daxili Məhsul (ÜDM) istehsalı 2011-ci ildə 0.1% artaraq 50.1 milyard manata çatmışdır. Nəticə olaraq, ölkə əhalisinin hər bir nəfərinə 5530.6 manatlıq (7003.4 ABŞ dolları) əlavə dəyər istehsal olunmuşdur. İqtisadiyyatın qeyri-neft sektorunda əlavə dəyərin 9.4% artımı müşahidə olunmuş, onun ÜDM-də xüsusi çəkisi ilk dəfə olaraq 48.3% təşkil etmişdir. Müvafiq olaraq, ümumi daxili məhsulun 51.7% neft-qaz istehsalı və emalı sahələrinin payına düşmüş və əvvəlki ilə nisbətən 9.3% azalmışdır. Bununla yanaşı, milli iqtisadiyyatın qalan sahələrində nəzərə çarpacaq artım müşahidə edildi - yaşayışın təşkili və ictimai iaşə sahələrində əlavə dəyər 22.6%, tikintidə 20%, informasiya və rabitədə 11.8%, ticarət və xidmətlər sahəsində 10.2%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 5.8%, sosial və digər xidmətlər sahəsində 5.7% artmışdır.

Ümumi hesabda isə ÜDM-in 53.9%i sənaye sahələrində, 5.5% kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında, 8.3% tikinti sektorunda, 7.7% ticarət və pullu xidmət sahələrində, 6.6% nəqliyyat və rabitədə, 12% digər xidmətlər və sosial sahələrdə yaradılıb. Bu zaman ÜDM-in 6% məhsula və idxala xalis vergilərin payına düşmüşdür.

## Sənaye

2011-ci ildə sənayedə fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən 34.5 milyard manatlıq məhsul istehsal olunub və xidmətlər göstərilib. Bu göstərici 2010-cu il ilə müqayisədə 5% azalmışdır. Neft sektorunda 8.5% azalma müşahidə edildiyi zaman, qeyri-neft sənaye bölməsinin əksər sahələrində istehsalın həcmi əksinə, artıb. Nəticədə qeyri-neft sektorunda müşahidə olunan artım 11.1% təşkil edib.

Sənaye məhsulunun 77.9% mədənçıxarma bölməsindəki istehsalın payına düşür. Sahənin əsas məhsulu olan xam neft hasilatı 45,4 milyon ton, təbii qaz hasilatı isə 25,7 milyard kub-metr təşkil edib. Bu zaman neft hasilatı 10.5%, qaz hasilatı isə 2.2% azalmışdır. Ümumilikdə isə mədənçıxarma bölməsində istehsalın həcmi 26.9 milyard manat dəyərində. Emal bölməsində istehsal olunan məhsul və sənaye xidmətlərin dəyəri 5.9 milyard AZN təşkil edib və ümumi sənaye məhsulunun 17% bərabərdir. Bu sahədə istehsalın həcmi 7.1% artmaqla daha çox hissəsi - qida məhsullarının istehsalının payına düşmüşdür. Bundan başqa, emal bölməsinə daxil olan və 2011-ci ildə nəzərə çarpacaq sürətdə artım nümayiş etdirən məhsul istehsalı geyim istehsalı (56.5%), ağac emalı (23.4%), kimya sənayesi (27.1%), rezin və plastik kütlə məmulatları (47.2%), metallurgiya sənayesi (85.9%), kompüter və digər elektron avadanlıqları (22.8%), maşın və avadanlıqlara (25.4%) aiddir. Sənaye məhsulunun ümumi həcmində payına 4.5% düşən elektrik enerjisi, qaz və buxar istehsalında elektrik enerjisinin istehsalı 8.4% artıb və 20.1 milyard kVt/saat təşkil edib.
Qeyd edək ki, Azərbaycan sənaye müəssisələrində çalışan muzdlu işçilərin sayı ötən il 165 min nəfərə, onların orta aylıq əmək haqqı isə 14.9% artaraq 520 manata çatmışdır. Qeyri-dövlət sənaye müəssisələrində işçilərin əmək haqqı daha yüksək - 620 manat səviyyəsində olmuşdur. Əmək haqqının artımı əczaçılıq, mebel, hazır metal məmulatlarının istehsalı, metallurgiya sənayesi, poliqrafiya fəaliyyəti, rezin və plastmas məmulatların istehsalı, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı, kağız və karton istehsalı, zərgərlik, musiqi, idman və tibb avadanlıqlarının istehsalı, toxuculuq sənayesi, kompüter və digər elektron avadanlıqlarının istehsalı, maşın və avadanlıqların istehsalı, sair nəqliyyat vasitələrinin istehsalı, ağac emalı və ağacdan məmulatların istehsalı, tikinti materiallarının istehsalı, geyim istehsalı, ilə məşğul olan emal müəssisələrində müşahidə olunub.

## Əsas kapitala vəsaitlər

Hesabat ilində ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 12776.4 milyon manat vəsait yönəldilib. Bu məbləğin 61.2% tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi 27.3%, tikinti-quraşdırma işlərinə sərf edilmiş vəsait isə 17.5% çox olmuşdur. Dövlət mülkiyyətli müəssisə və təşkilatlar əsas kapitala 7482.3 milyon manat, qeyri-dövlət müəssisələri isə 5294.1 milyon manat vəsait sərf etmişlər. Bu zaman xarici mənbələrdən yönəldilmiş vəsaitlərin xüsusi çəkisi 19.7% bərabər olub.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 6095.9 milyon manat (ümumi vəsaitlərdən 47.7%), bank kreditləri 897 milyon manat (7%), büdcə vəsaitləri



| Azərbaycan iqtisadiyyatın əsas göstəriciləri | 2011 il | Əvvəlki ilə nisbətən, %-lə |
|---|---|---|
| Ümumi Daxili Məhsul | 50069,0 | 100,1 |
| Məhsulların istehsalı | 33907,8 | 96,5 |
| o cümlədən: Sənaye | 26990,1 | 91,8 |
| mədənçıxarma sənayesi | 24240,0 | 89,8 |
| emal sənayesi | 2184,4 | 107,4 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 509,5 | 111,1 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 56,2 | 112,0 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2736,4 | 105,8 |
| Tikinti | 4181,3 | 120,0 |
| Xidmətlərin istehsalı | 13179,3 | 106,5 |
| o cümlədən: ticarət; nəqliyyat vasitələrinin təmiri | 3263,7 | 110,2 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2464,2 | 99,2 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 599,2 | 122,6 |
| İnformasiya və rabitə | 842,5 | 111,8 |
| Sosial və digər xidmətlər | 6009,7 | 105,7 |
| Məhsula və idxala xalis vergilər | 2981,9 | 108,2 |
| Deflyator | 117,8 | * |

Pərakəndə əmtəə dövriyyə
və əhaliyə göstərilən pullu xidmətlər




*A - Pərakəndə əmtəə dövriyyəsinin və pullu xidmətlər*
*B - Pərakəndə ticarət dövriyyəsi*
*C - Əhaliyə göstərilən pullu xidmətlərin həcmi*

■ 2011-ci il, mln. AZN-lə ■ 2010-cu il, mln. AZN-lə

5038.5 milyon manat (39.5%), büdcədənkənar fondların vəsaitləri 396.5 milyon manat (3.1%), əhalinin şəxsi vəsaitləri 335.7 milyon manat (2.6%) təşkil etmişdir. Banklar tərəfindən yönəldilmiş vəsaitlərin həcmi hesabat ilində 37.5% artmışdır və büdcə vəsaitləri ilə bərabər ən yüksək dinamikası ilə seçilir.

Xarici mənbələrdən əsas kapitala yönəldilən vəsaitin həcmi 2516 milyon manat təşkil edərək, əvvəlki ilin müvafiq dövrünə nisbətən 3.2% çox olmuşdur. Xarici ölkələr və beynəlxalq təsisatlar tərəfindən 2011-ci ildə əsas kapitala yönəldilmiş xarici vəsaitin 84.2% Böyük Britaniya, ABŞ, Yaponiya, Fransa, Norveç, Çexiya, Türkiyə və Koreya investorlarına məxsusdur.

## Kənd təsərrüfatı

Ölkənin aqrar sektoru ötən ili uğurla başa vurub. Kənd təsərrüfatı məhsullarının dəyəri 4525.2 milyon AZN təşkil etdiyi zaman, sektorun sabit qiymətlərlə dəyəri 5.8% artmışdır. İl ərzində bitkiçilik məhsulları istehsalı 8%, heyvandarlıq məhsulları istehsalı isə 3.5% artım nümayiş edib. Bu zaman 2458.5 min ton dənli və dənli paxlalılar, 938.5 min ton kartof, 1214.8 min ton tərəvəz, 765.8 min ton meyvə və giləmeyvə, 478 min ton bostan məhsulları, 65.3 min ton pambıq, 137.0 min ton üzüm, 3.6 min ton tütün, 254.7 min ton şəkər çuğunduru, 534.1 ton yaşıl çay yarpağı, 20 min ton dən üçün günəbaxan istehsal olunub. Əvvəlki il ilə müqayisədə ən çox artım meyvə və giləmeyvə (70.9%), şəkər çuğunduru (27%), dənli və dənli paxlalılar (22.9%) üzrə qeydə alınıb. Heyvandarlıq sahəsində ötən ildə diri çəkidə 458.9 min ton ət,

# Azərbaycan iqtisadiyyati 2011-ci ildə

| Qiymət və tarif indeksləri bölgələr üzrə | Cəmi mallar və xidmətlər üzrə | Ərzaq məhsulları, içkilər, tütün | Qeyri-ərzaq malları | Xidmətlər |
|---|---|---|---|---|
| Bakı şəhəri | 100,6 | 100,9 | 100,0 | 100,6 |
| Abşeron | 100,9 | 101,4 | 100,4 | 100,2 |
| Gəncə-Qazax | 101,2 | 102,3 | 100,0 | 100,5 |
| Şəki-Zaqatala | 100,9 | 101,4 | 100,2 | 100,4 |
| Lənkəran | 101,1 | 102,0 | 100,2 | 100,1 |
| Quba-Xaçmaz | 100,6 | 101,3 | 99,9 | 100,0 |
| Aran | 101,2 | 102,4 | 99,9 | 100,1 |
| Yuxarı Qarabağ | 100,9 | 101,2 | 100,2 | 101,2 |
| Dağlıq Şirvan | 100,5 | 100,9 | 100,4 | 100,1 |
| Naxçıvan | 100,0 | 100,0 | 100,0 | 100,0 |

1622.3 min ton süd, 1008.1 milyon ədəd yumurta, 16.2 min ton yun istehsal olunub. Bu zaman ət istehsalı 4.3%, süd istehsalı 5.6%, yun istehsalı 3.7% artıb, yumurta istehsalı 14.5% azalıb.

## Tikinti

Tikinti kompleksində aparılan inşaat işləri üçün 2011-ci ildə bütün maliyyə mənbələrindən 12.8 milyard manat məbləğində investisiyalar istifadə edilib. Ümumi məbləğdən 7.8 milyard manat məhz tikinti-quraşdırma işlərinə xərclənib. İnvestisiyanın 43.1% məhsul istehsalı obyektlərinin inşasına sərf olunub. İl ərzində ümumi sahəsi 1922.3 min kv.metr yaşayış evləri istifadəyə verilib.

Tikinti müəssisələri tərəfindən yerinə yetirilən inşaat işlərinin həcmi əvvəlki ilin səviyyəsini 26.9% üstələyib. Görülən ümumi tikinti işlərinin 76.5% yeni tikinti, yenidənqurma və genişləndirmə, 16.2% əsaslı təmir, 7.3% isə cari təmir və sair tikinti işləri təşkil edib. Dövlət mülkiyyətli tikinti müəssisələri yerinə yetirilən ümumi inşaat işlərinin 25.2%-ni, müvafiq olaraq özəl tikinti müəssisələri isə - 74.8% həyata keçiriblər.

## Nəqliyyat

Ölkə iqtisadiyyatının əsas infrastrukturlarından biri olan nəqliyyat sektoru dayanıqlı inkişaf edir. Əvvəlki illərdə olduğu kimi, 2011-ci ildə də nəqliyyat sektoruna investisiyaların yönəldilməsi, nəqliyyatın hərəkət heyətinin yenilənməsi, yeni avtomobil yollarının çəkilişi, yenidən qurulması davam edib, həyata keçirilən transmilli layihələr bu sahənin inkişafına müsbət təsir göstərib. Hesabat ilində nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən iqtisadiyyatın müxtəlif sahələrinə və əhaliyə göstərilən xidmətlərin üçdə iki hissəsi dəmir yolu nəqliyyatı, 9% dəniz, 15.3% hava nəqliyyatı, qalan hissəsi isə digər nəqliyyat fəaliyyəti ilə məşğul olan müəssisələr tərəfindən göstərilib. İl üzrə yük nəqliyyatı ilə 203.5 milyon ton daşınmışdır. Bu göstərici ötən il ilə müqayisədə 3.6% çoxdur. Qeyri-neft yüklərinin həcmi isə il ərzində 9.6% artmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 54% avtonəqliyyat, 29% boru kəməri, 10.9% dəmir yolu, 6.1% dəniz nəqliyyatı vasitələri ilə həyata keçirilib.

## Rabitə

İnformasiya və rabitə sektoru öz inkişaf sürətinə görə iqtisadiyyatın digər sahələrini qabaqlamış, ötən ildə təsərrüfat subyektlərinə və əhaliyə 1.2 milyard manatlıq və ya əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 11.8% çox xidmət göstərilmişdir. Əhaliyə göstərilmiş informasiya və rabitə xidmətlərinin payı 72.7% təşkil edib. Xidmətlərdən əldə olunan gəlirlərin 61.8% mobil telefon rabitəsindən yaranmış. 2010-cu il ilə müqayisədə bu xidmətlərin həcmi 3.6% artaraq 770 milyon manat təşkil edib. Mobil telefon abunəçilərinin sayı son bir il ərzində 162.5 min artıb. Ümumi hesabda cari ilin əvvəlinə abunəçilərdə 9.1 milyon nömrə mövcud olmuş və onların 7 milyonu aktiv olmaqla istifadə olunmuşdur.

## İstehlak bazarı və pullu xidmətlər

2011-ci ildə ticarət və xidmət şəbəkələrində istehlakçılara 21.8 milyard manatlıq və ya əvvəlki il ilə müqayisədə 9.9% çox istehlak malları satılan və pullu xidmətlər göstərilib. Hesabat ilində hər bir ölkə sakini orta hesabla ayda 200.5 manatlıq müxtəlif istehlak malları almış və pullu xidmətlərdən istifadə etmişdir. İstehlak bazarından alınmış məhsulların 60.9% ərzaq məhsulları, 39.1% qeyri-ərzaq malları təşkil edib. Ərzaq məhsullarının satışı 3.2%, qeyri-ərzaq mallarının satışı isə 28.2% artmışdır. Ölkənin hər bir sakini ticarət şəbəkəsindən orta hesabla 1816.6 manatlıq müxtəlif istehlak malları almışlar.

2011-ci ildə əhaliyə göstərilən pullu xidmətlərin həcmi 7.8% artaraq 5332.4 milyon manata çatmışdır. Artımın 62.9% hüquqi şəxslərin müəssisələrində yaranan və bu müəssisələrdə əhaliyə 4096.1 milyon manatlıq və ya 6.3% çox pullu xidmətlər göstərilmişdir. Hesabat dövründə hər bir ölkə sakini orta hesabla ayda 49.1 manatlıq müxtəlif pullu xidmətlərdən istifadə etmişdir.

2011-ci ildə əvvəlki ilin yanvar-dekabr aylarına nisbətən istehlak mallarının qiymətləri və xidmət tarifləri 7.9% bahalaşıb. Ölkənin iqtisadi rayonları üzrə 2011-ci ilin dekabr ayında istehlak qiymətləri indeksinin dəyişməsi aşağıdakı kimi olmuşdur:

## Əhalinin gəlirləri

2011-ci ildə ölkə əhalisinin gəlirləri əvvəlki illə müqayisədə 19.6% artaraq 30.6 milyard manata çatmış, onun hər nəfərə düşən həcmi 18.1% artaraq 3383.8 AZN və ya ayda orta hesabla 282 manat təşkil edib. Hər nəfərə düşən gəlirlərin artım sürəti istehlak qiymətlərinin bahalaşmasını 10.2 faiz bəndi üstələmişdir.

Gəlirlərin 63.3% son istehlaka, 7.9% vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, 27% isə əmanətlərin və kapitalın artırılmasına yönəldilib. Əhalinin sərəncamında qalan gəlir 28.2 milyard AZN təşkil edib və əvvəlki ilə nisbətən 20.5% artıb.

Xarici ölkə və beynəlxalq təsisatların əsas kapitala qoyuluşlardakı payları




Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı əvvəlki il ilə müqayisədə 9.5% artaraq 363.1 AZN təşkil edib. Bu zaman neft sektorunda çalışanların orta əmək haqqı 1176.6 AZN, milli iqtisadiyyatının qeyri-neft sahələrində işləyən vətəndaşların orta əmək haqqları 340.5 AZN-nə bərabər olub.

## Xarici ticarət

2011-ci ildə Azərbaycanda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər dünyanın 149 ölkəsindəki tərəfdaşları ilə 36326,9 milyon ABŞ dolları məbləğində ticarət əməliyyatları aparmışlar. Bu əmtəə dövriyyəsinin ümumi həcminin 73.1% ($26 570,9 milyon) ölkədən ixrac olunmuş mallar, 26.9% ($9756 milyon) idxal məhsulları təşkil edib. İxrac idxalı üstələmiş və nəticədə $16814,9 milyon müsbət xarici ticarət saldosu yaranmışdır. Əvvəlki il ilə müqayisədə xarici ticarət dövriyyəsinin fiziki həcmi 3.9%, o cümlədən idxal 45.3% artmış, ixrac isə 11.3% azalmışdır.

Xarici ticarət dövriyyəsinin 80.5% İtaliya, Fransa, Rusiya, Amerika Birləşmiş Ştatları, Türkiyə, Ukrayna, Almaniya, İndoneziya, İsrail, Belarus, Malayziya, Çin, Koreya Respublikası və Gürcüstan dövlətlərinin hesabına formalaşmışdır. İdxal olunan malların 31.1% maşın və mexanizmlər, elektrotexnika avadanlığı, 17.3% quru, hava və su nəqliyyatı vasitələri, 13.6% az qiymətli metallar və onlardan hazırlanan məmulatlar təşkil etmişdir. İxrac olunmuş malların ümumi həcminin 94.5% mineral məhsullar, o cümlədən 92% neft və neft emalı məhsulları təşkil etmişdir.

## Xarici investisiyalar

2011-ci ildə milli iqtisadiyyatına 8673,9 milyon ABŞ dolları həcmində və ya əvvəlki ildəkindən 5.2% çox xarici investisiya yönəldilib. Sərmayələrin 49.5% ($4293,8 milyon) iqtisadiyyata birbaşa investisiyalar, 42.6% ($3692,5 milyon) isə maliyyə kreditləri şəklində daxil olmuşdur. Bu dövrdə qeyri-neft sektoruna $886 milyon birbaşa xarici investisiyalar yönəldilmişdir.




## Gümüş abbası, təngə və dirhəmlər

Səfəvilər sülaləsi dövründə ilk dəfə buraxılan abbası (1), 1717-1731-ci illər. Cəlarilər dövlətində zərb olunan dirhəm (2), 1375-1382 illər. Qaraqoyunlu dövləti tərəfindən buraxılan tenqələr (3,4), 1437-1467-ci illər.

# Azərbaycan bank sektoru 2011-ci ildə

Bank sektorunun ötən ildə nümayiş etdirdiyi inkişaf maliyyə təsisatlarının vasitəçilik funksiyasının daha da dərinləşməsinə dəlalət edir. 2011-ci il ərzində ölkə banklarının aktivləri 7% artmış, məcmu kredit portfelləri isə əvvəlki ilin göstəricilərini 8% üstələmişdir. Bankların kapital mövqeyi güclənmiş, bank sisteminə etimad əhəmiyyətli dərəcədə artmışdır. Təsadüfi deyil ki, 2011-ci ildə qeyri-neft ÜDM-nə nisbətdə bank aktivləri 64,9%, iqtisadiyyata kreditlər 44,1%, əhalinin əmanətləri isə 18,7% təşkil etmişdir. İlin yekunlarına görə "Unibank" daxil olmaqla ən iri bankların (aktivlərin həcminə görə ilk 5 bank) sistem üzrə məcmu aktivlərdə payı 57% bərabər olmuşdur. Belə sistem əhəmiyyətli maliyyə təsisatlarının bankların iqtisadiyyata məcmu kredit qoyuluşlarındakı payı 56,5% təşkil edib.

Bu zaman Azərbaycan bankları daxili institusional potensiallarını artırmış, korporativ idarəetmə standartlarının tətbiqini gücləndirmiş, insan və müasir texnologiyalara investisiyaların əhəmiyyətli dərəcədə genişləndirmişlər. Nəticədə 2011-ci ildə bankların xarici investorlar üçün cəlbediciliyi daha da artmışdır. İl ərzində xarici kapitallı bankların sayı 22-dən 23-ə yüksəlmiş, bank sektoruna xarici kapital investisiyalarının həcmi 20,8% artaraq 296 mln. AZN-nə çatmışdır.

Bankların xarici maliyyə bazarlarında fəallaşması və nüfuzunun artması beynəlxalq reytinqlərdən də görünür. Hazırda Azərbaycanda 11 bank beynəlxalq reytingə malikdir və inkişaf etmiş ölkələrin bir çox banklarında reytinqlərin aşağı salınması fonunda onlar reytinq səviyyələrini qoruyub saxlamaqla bərabər, bəzi hallarda artıra bilmişlər.

İqtisadiyyatın maliyyə xidmətlərinə tələbatının ödənilməsi, maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması məqsədi ilə bankların filial şəbəkəsi genişlənmişdir. 2011-ci ildə bankların 26 yeni filialı və 46 yeni şöbələri açılmış. Onların 49,2% regionlarda fəaliyyət göstərir. Bank infrastrukturunun coğrafi şəbəkəsinin genişlənməsi iqtisadi agentlərin, xüsusilə də əhalinin bank xidmətlərinə çıxış imkanlarını genişləndirmişdir. Hazırda ölkə ərazisinin hər 1000 m2-ə 12,5 (ilin əvvəlində 11,3) və 100.000 nəfər yetkinlik yaşına çatmış əhaliyə isə 17,4 (ilin əvvəlində 16,1) bank və onların struktur bölmələri maliyyə xidməti göstərir.

## Bank sisteminin öhdəlikləri

Hesabat ilində bank sisteminin resurs bazası daha dayanıqlı mənbələr hesabına möhkəmlənib. İl ərzində ölkə banklarının öhdəlikləri 1662 mln. manat və ya 16,3% artmış və nəticədə 11 831,7 mln. manat təşkil edib. Bankların resurs bazasının formalaşmasında hüquqi (qeyri-maliyyə təşkilatları) və fiziki şəxslərdən cəlb olunan əmanətlərin payı yüksək olmuşdur. İqtisadi subyektlərin bank sisteminə etimadının təzahürü olaraq, əmanət və depozitlərin yüksək artımı qeydə alınıb və bu artım daha çox fərdi əmanətlərin müsbət dinamikası ilə bağlıdır.

Bankların daxili mənbələr hesabına formalaşan ümumi depozit bazası (maliyyə təşkilatları istisna olmaqla) 1478,4 mln. manat (27,1%) artaraq 6927,4 mln. manat təşkil etmişdir. İlin sonuna depozit və əmanətlərin cəmi öhdəliklərin strukturunda payı 58,5%, cəmi resurs bazasında isə 48,6% olmuşdur 2011-ci ildə fiziki şəxslərin əmanətləri 36% artaraq ilin sonuna 4119,8 mln. manata çatmış, halbu ki 2010- cu ildə artım tempi 29,8% olmuşdur. Eyni zamanda hüquqi şəxslərin depozitləri (dövlət idarəetmə orqanları daxil olmaqla) 16,1% artaraq 2807,6 mln. manat təşkil etmişdir. İl ərzində əhali əmanətlərinin bankların öhdəliklərində payı 29,8%-dən 34,8%-dək artıb.

Depozit bazasının mütləq artımı ilə yanaşı onun keyfiyyətində də müsbət dəyişikliklər baş verib. İlk növbədə əhali əmanətlərinin strukturunda müddətli əmanətlərin payı yüksəlib. Cari hesablarda fərdi əmanətlər 269,7 mln. manat artdığı halda, müddətli əmanətlər 820,4 mln. manat artmışdır. Depozitlərin müddət strukturunun yaxşılaşması ilə yanaşı onun valyuta strukturunda da müsbət meyllər müşahidə olunur. Belə ki, fiziki şəxslərin milli valyutada aşdıqları əmanətlər il ərzində 62% artmış, ümumi əmanətlərdə Azərbaycan manatında olan depozitlərin payı isə ilin sonuna 55% çatıb. Maraqlıdır ki, əmanətçi strukturunda ciddi dəyişikliklər baş verməmiş, rezident fiziki şəxslərin əmanətlərinin ümumi həcmdə payı 91%, qeyri-rezident əmanətçilərin payı isə 9% təşkil etmişdir.

2010 - 2011-ci illərdə
bank aktivlərinin artım tempi




2011-ci ildə banklar tərəfindən maliyyə institutlarından cəlb edilən vəsaitlərin həcmi 3,7 mlrd. manat təşkil edib və ümumi bank öhdəliklərində 31% bərabər olub. Bu zaman qeyri-rezidentlərdən cəlb edilən müddətli resursların xalis artımı yalnız 0,5% olduğu halda, müddətli xarici borcların məcmu həcmi 1,86 mlrd. AZN təşkil edib. Müddətli xarici borclarının ümumi bank öhdəliklərindəki payı 15,7% enib. Ümumilikdə isə, son 3 ildə özəl bankların xarici borcu 41% azalaraq 640 mln. AZN qədər enmişdir.

## Aktivlərin həcmi və strukturu

Hesabat ilində banklar tərəfindən nümayiş etdirilən fəallıq və milli iqtisadiyyata dəstək, birbaşa olaraq onların aktivlərinin həcminə və strukturuna müsbət təsir edib. 2011-ci ildə bank sektorunun aktivləri 968,0 mln. manat və ya 7,3% artaraq 14 259,2 mln. manata çatmışdır. Müqayisə üçün 2010-cu ildə bank aktivlərinin artımı 5,8% olmuşdur. Bank kreditləri 727 mln. manat və ya 8,1% artaraq 1 yanvar 2012-ci il tarixinə 9698,8 mln. manat səviyyəsinə çatmışdır. Kreditlərin (xalis) aktivlərdə xüsusi çəkisi 68 % təşkil etmişdir. Ən əsası isə uzunmüddətli kreditlərin həcmi 4,4% artaraq ilin sonuna 6834,4 mln. AZN təşkil etmişdir. 2011-ci ilin sonuna bankların məcmu kredit portfelində uzunmüddətli kreditlərin xüsusi çəkisi 71% təşkil edib.

İl ərzində kreditlərin valyuta strukturunda da müsbət dəyişiklik müşahidə olunub. Məzənnə sabitliyinin qorunub saxlanılması milli valyutada olan kreditlərin 8,7% artmasına və məcmu kredit portfelinin artımının başlıca mənbəyinə çevrilməsinə gətirib. Hesabat ilinin sonuna milli valyutada olan kreditlərin məcmu kredit portfelindəki payı 65% qədər artıb.

Bankların kredit portfelinin strukturunda ev təsərrüfatlarına, ticarət və xidmət sektoru tərəfindən cəlb olunan kreditlərin payı mühüm yer tutur. Kreditlər üzrə ən yüksək artım tempi inşaat və əmlak sektorlarına (32,5%), ticarət və xidmət sahələrində (29,2%), ev təsərrüfatlarına (21,9%), kənd təsərrüfatı və emala (5%) verilən kreditlərdə müşahidə olunub. Ev təsərrüfatlarına ayrılan kreditlər ilin sonuna 3085,2 mln. manat təşkil etdiyi zaman, onların bankların ümumi kredit portfelindəki xüsusi çəkisi 28,2%-dən 31,8%-zə qədər artıb. Qeyd etmək lazımdır ki, il ərzində ipoteka kreditləşmənin həcmi 43,4% artaraq 575,8 mln. AZN və ya cəmi kreditlərin 4,4%-ni təşkil edib.

Vaxtı keçmiş kreditlərin məcmu kredit portfelində payı ilin sonuna 6,4%, qeyri-standart kreditlərin payı isə 8,5% təşkil etmişdir.

2011-ci illdə
banklarda qeyd olunan müştəri artımı




Bank aktivlərinin strukturunda qiymətli kağızlara investisiyaların payı 8,8% bərabər olub. Bu yatırmaların həcmi isə il ərzində 35,5% artaraq 1356,4 mln. AZN çatıb. Qiymətli kağız portfelinin strukturunda da müsbət dəyişikliklər müşahidə olunub. Əgər 2010-cu ildə qiymətli kağızlarda korporativ qiymətli kağızların payı 66,5% (666 mln. manat) olmuşdursa, 2011-ci ilin sonunda həmin göstərici artıq 70,8% (959,8 mln.manat) təşkil etmişdir. Dövlət Qiymətli Kağızlarına investisiya 18 % artmış və 2011-ci ilin sonuna 394,6 mln. manata təşkil etmişdir.

Maraqlıdır ki, kreditlərin artımı şəraitində likvid aktivlərin cəmi aktivlərə nisbəti il ərzində 14-19% diapazonunda olmuşdur. Banklar tərəfindən aktiv

# Azərbaycan bank sektoru 2011-ci ildə

və passivlərin vaxt strukturunun optimallaşdırılması və müddət üzrə aktiv və passivlər arasında fərqin azaldılması bank sistemində likvidlik riskinin azalmasına təsir göstərmişdir. Likvidliyin aktiv və öhdəliklər üzrə müddət təhlili də likvidliyin məqbul səviyyədə (01.01.12-ci il -8%-+6% intervalında aktivlərə nisbəti) olmasını əks etdirir.

## Kapital

2011-ci ildə banklarda kapital bazasının möhkəmlənməsi davam edib. Azərbaycan bank sisteminin kapital adekvatlığı məqbul səviyyədə qeydə alınıb. Bankların məcmu kapitalı 12,7% artaraq 2138,7 mln. manata çatıb. Ümumilikdə, bank sisteminin məcmu kapital adekvatlığı yüksək səviyyədə qalmış (16,3%) və Mərkəzi Bankın müəyyən etdiyi minimal normanı (12%) və beynəlxalq təcrübədə qəbul olunan minimal səviyyəni (8%) xeyli üstələyib. Eyni zamanda birinci dərəcəli kapitalın adekvatlığı da normadan iki dəfə çoxdur (13,1%).

## Maliyyə nəticələr

2011-ci ildə bank sektorun maliyyə nəticələri ümumilikdə müsbət və qənaətbəxş hesab etmək olar. Ölkə banklarının əldə etdikləri mənfəət (vergi ödənilənədək) 160,8 mln. manat olmuş, vergilər ödənildikdən sonra isə xalis mənfəətin həcmi əvvəlki il ilə müqayisədə 17,5% artaraq 141,4 mln. manat təşkil edib. Bankların 71%-zi ili 187,6 mln. manat həcmində mənfəətlə, 30% isə 46,3 mln. manat həcmində zərərlə başa vurub. Zərərlə işləyən bankların ümumi bank sisteminin aktivlərində xüsusi çəkisi təxminən 20% təşkil edib.

Bank sektoru üzrə əsas göstəricilərinin dinamikası, %-lə




Bankların faiz gəlirləri 2010-cu il ilə müqayisədə 4% artmış və 1099,8 mln. manata çatmışdır. Bu zaman müştərilərə verilən kreditlər üzrə faiz gəlirləri 7% artaraq 1011,6 mln. AZN təşkil edib. Bankların ümumi gəlirləri bu zaman 1420,8 mln. AZN-nə bərabər olub ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 7,1% çoxdur. 2011-ci ildə bütün faiz gəlirlərinin ümumi gəlirlərdə xüsusi çəkisi 77,4% olmuşdur. Öz növbəsində faiz xərclərin artımı ötən il 6,3% bərabər olub, onların ümumi həcmi isə 586,3 mln. manat təşkil edib. Banklarda faiz xərclərinin mütləq artımına baxmayaraq, bu göstəricinin sektorun orta aktivlərinə nisbəti 4,5%-ə düşmüşdür. Nəticə kimi il ərzində bankların ümumi xalis faiz mənfəəti 1,9% artmışdır və 513,4 mln. AZN-ə çatmışdır. Həmin dövrdə bankların qeyri-faiz xərcləri 19,3% artmış və 538,4 mln. AZN təşkil etmişdir.

2011-ci ildə bank sektorunun aktivlərinin gəlirliliyi (vergi ödənilənədək xalis mənfəətin orta aktivlərə nisbəti kimi hesablanmış - ROA) 1,1%, kapitalın gəlirliliyi (vergi ödənilənədək xalis mənfəətin orta kapitala nisbəti kimi hesablanmış - ROE) 7,8% təşkil etmişdir.



# Beynəlxalq reytinqlər

"Fitch Ratings" beynəlxalq reytinq agentliyi 2011-ci ildə "Unibank" Kommersiya Bankı ASC-nin uzunmüddətli reytinqlərini yenidən "B -" səviyyəsində təsdiqləyib. Bu zaman Bankın qısamüddətli reytinqi "B" kimi, fərdi reytinq "D/E" kimi, dəstəklənmə reytinqi isə "5" səviyyəsində elan olunub. Əsas reytinq dərəcəsi üzrə agentliyin proqnozu "sabit" kimi açıqlanıb.

Ötən il "Fitch" tərəfindən alınan reytinqlər, "Unibank"-ın daha dayanaqlı balansını, inkişaf edən korporativ idarəetməsini, artan kapitallaşdırılma səviyyəsini və beynəlxalq maliyyə təsisatların səhmdar kapitalında əhəmiyyətli minoritar paylara malik olmasını əks etdirir. "Fitch"-in hesabatında xüsusi ilə qeyd edilir ki, yaxın gələcəkdə Bankın reytinqinə pozitiv təsir edə biləcək əsas amil aktivlərin və kapitallaşmanın məqbul keyfiyyəti şəraitində gəlirlik göstəricilərin artması olacaq.

Öz növbəsində, digər beynəlxalq reytinq agentliyi - "Moody's Investors Service" "Unibank"-ın xarici və milli valyutalarda öhdəlikləri üzrə uzunmüddətli reytinqini yenidən "B2" səviyyəsində təsdiqləyib. Qlobal və lokal maliyyə bazarlarında reytinqlərin aşağı düşməsi şəraiyində, "Moody's Investors Service" 2011-ci ildə, Bankın maliyyə dayanıqlılığı reytinqini (BFSR - Bank Financial Strength Rating) «E+» səviyyəsində dəyərləndirərək, əsas reytinq üzrə proqnozunu bu dəfə «sabit» kimi elan edib. Bankın kifayət dərəcədə likvidliyi və kapitallaşdırılması ilə bərabər, reytinq agentliyinin hesabatında daha çox kredit fəallığı qeyd olunub. "Moody's" 2008-ci ilin sonundan "Unibank"-a qarşı ilk müsbət reytinq addımını kredit portfelinin və gəlirlərin əhəmiyyətli dərəcədə artması ilə şərtləndirir və gələcəkdə bu tendensiyaların davam edəcəyi təqdirdə yeni müsbət qiymətləndirmələri istisna etmir.

| **FITCH** Kredit reytinqləri | Sonuncu (01.04.2011 il) | Əvvəlki ilə nisbətən, %-lə (08.02.2010 il) |
| --- | --- | --- |
| Proqnoz | SABİT | SABİT |
| Xarici valyutada emitentin uzunmüddətli defolt reytinqi | «B - » («B MİNUS») | «B - » («B MİNUS») |
| Milli valyutada emitentin uzunmüddətli defolt reytinqi | «B - » («B MİNUS») | «B - » («B MİNUS») |
| Xarici valyutada qisamüddətli reytinq | «B» | «B» |
| Fərdi reytinq | «D/E» | «D/E» |
| Dəstək reytinqi | 5 | 5 |

| **MOODYS** Kredit reytinqləri | Sonuncu (11.11.2011 il) | Əvvəlki ilə nisbətən, %-lə (10.08.2010 il) |
| --- | --- | --- |
| Proqnoz | «SABİT» | «NEQATİV» |
| Xarici valyutada uzunmüddətli reytinq | «Ba2» | «Ba2» |
| Xarici valyutada qisamüddətli reytinq | «B2» | «B2» |
| Xarici valyutada uzunmüddətli reytinq | «Baa2» | «Baa2» |
| Milli valyutada qisamüddətli reytinq | «Prime-2 (P-2)». | «Prime-2 (P-2)». |
| Maliyyə dayaniqliq reytinqi (BFSR) | «E+» | «E+» |




## Gümüş təngə, şahı və abbası

Ağqoyunlu dövlətində zərb edilən təngələr (1,2) 1479-1502-ci illər. Səfəvidlər sülaləsinədə dövr edən şahı (3) və abbası (4), 1502-1694-cü illər

# Səhm və istiqrazların buraxılışı

2011-ci il ərzində "Unibank" ASC-nin nizamnamə kapitalı dəyişilməmiş və 44,919 milyon AZN bərabər olmuşdur.

Xatırladaq ki, əvvəlki il ərzində həyata keçirilən səhm buraxılışı və səhm nominalının yüksəldilməsi "Unibank" ASC-in səhmdar kapitalının strukturuna təsir göstərməyib. 2011-ci il 25 iyul tarixində qeydə alınan Qiymətli Kağız Sahiblərinin Reyestrinə müvafiq olaraq bir səhmin nominal dəyəri 2,16 AZN təşkil etmiş, onların ümumi sayı isə 20 796 000 çatmışdır.

2011-ci ilin mart ayında Bankın kapital bazasının gücləndirilməsi və uzunmüddətli likvidliyin təmin olunması məqsədi ilə Azərbaycanda ilk dəfə olaraq konvertasiya olunan istiqrazların emissiyası keçirilib. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) və Almaniyanın «DEG» yatırım şirkəti («Deutsche Investitions- und Entwicklungsgesellschaft mbH», «KfW Bankengruppe»-nin üzvü) «Unibank» ASC tərəfindən buraxılan bu istiqrazlara abunə yazıldılar. Buraxılışın ümumi həcmi 25 milyon ABŞ dolları təşkil etdiyi zaman, AYİB 17,5 milyon ABŞ dolları dəyərində istiqraz əldə edib, «DEG» isə 7,5 milyon ABŞ dolları dəyərində istiqraza abunə yazıldı.

Eyni zamanda, 2011-ci il dekabrın 9-da «Unibank» ASC-nin təmin olunmamış, faizli sənədsiz adlı istiqrazlarının emissiya prospekti Qiymətli kağızlar üzrə Dövlət Komitəsi (QKDK) tərəfindən AZ200800202 dövlət nömrəsi ilə qeydiyyata alındı. Ümumilikdə, hər birinin nominal qiyməti 50 000 manat olan 400 istiqraz buraxılıb. Qiymətli kağızlar 1080 gün dövriyyəlidir, onlar üzrə faiz dərəcəsi isə gündəlik faiz ödəniş dövri 90 gün olmaqla illik 11% təşkil edir. Ümumi həcmi 20 milyon manata çatan «Unibank» istiqrazları buraxılışının anderrayteri qismində «Unicapital» şirkəti çıxış etdi. Qeyd etmək lazımdır ki, istiqrazların emissiya prospekti «PAŞA Bank» ASC və «Unicapital» şirkəti vasitəsi ilə Bakı Fond Birjasında (BFB) yerləşdirildi. Bu zaman Bank istiqrazlarının yerləşdirilməsi Birjada açıq abunə yolu ilə keçirildi. Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə və "Unibank" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinə əsasən, "Unibank" ASC-si istiqrazlarla bağlı əməliyyatlar barədə məlumat xüsusi əhəmiyyətli əqd kimi mətbuatda açıqlandı.

## 01.01.2012-ci il tarixinə səhmdarlar






| Emissiyalarının sayı | Dövlət qeydiyyatının tarixi | Dövlət qeydiyyatı orqanı | Dövlət qeydiyyat nömrəsi | Emissiya olunan səhmələrin sayı |
|---|---|---|---|---|
| 1 | 21.07.1993 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38 | 500 |
| 2 | 28.04.1995 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38/2 | 1.500 |
| 3 | 11.05.1995 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38/3 | 18.000 |
| 4 | 20.06.1996 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 38/4 | 80.000 |
| 5 | 28.12.1996 | Azərbaycan Respublikası Milli Bankı | 1050073B | 320.000 |
| 6 | 27.03.1998 | Azərbaycan Respublikası Milli Bankı | 1060073B | 180.000 |
| 7 | 29.09.1998 | Azərbaycan Respublikası Milli Bankı | 1070073B | 200.000 |
| 8 | 05.05.1999 | Azərbaycan Respublikası Milli Bankı | 1080073B | 117.500 |
| 9 | 29.06.2001 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1010202B | 200.000 |
| 10 | 10.06.2002 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1020202B | 100.000 |
| 11 | 03.10.2002 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1030202B | 767.132 |
| 12 | 13.11.2003 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 1040202B | 500.000 |
| 13 | 18.05.2005 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | AZ100100202P | 800.000 |
| 14 | 17.07.2007 | Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | AZ100100202 | 7.500.000 |
| 15 | 05.06.2009 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | AZ100100202 | 15 000 000 |
| 16 | 12.11.2010 | Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | AZ100200202 | 20 796 000 |
| Cəmi | | | | 44 919 360 |




## Azərbaycan xanlıqlarında dövr edən ilk pullar

Gəncə xanlığında buraxılan şahlı (1) və abbası (2), 1760-1774-cü illər. Qarabağ xanlığında zərb edilən sahibqıran (3), Bakı xanlığında çıxan fulus (4), 1770-1806-cı illər

# Pərakəndə biznes

## Kredit fəaliyyəti

Pərakəndə biznesin inkişafı "Unibank"-ın son illər üçün qəbul etdiyi başlıca prioritetidir. Bu sahədə əsas məqsəd əhalinin artan istehlak tələbatlarına lazımi xidmətlərin faydalı şərtlərlə təklif olunmasıdır. Təbii ki, fərdi müştərilərin tələbatı daha çox Bankın artıq prinsipial sürətdə yenilənən kredit məhsullar xəttinə düşür.

2011-ci ildə "Unibank" fərdi kreditləşmə sahəsində liderlər sırasına daxil olmuşdur. Bankın kredit portfeli 76,4 mln. manat və yaxud 32,2% artaraq, 313,6 mln. manat təşkil edib. Məcmu portfelinin 58,5% bir ildən artıq və daha uzun müddətə cəlb olunan kreditlərin payına düşür. Bu zaman istehlak kreditləşdirmənin həcmi il ərzində 31% artım nümayiş etdirib - 98,7 mln. manatdan 129 mln. manatadək. İstehlak kredit portfelinin artımı əsasən "Nağd kredit"-lər, avtokreditlər və ipoteka kreditləri hesabına baş verib. Bunun əsas səbəbi isə yeni kredit məhsulların tətbiqi və fərdi müştərilərə təklif olunan kredit şərtlərinin yerli bank xidmət bazarına uyğunlaşdırılmasındadır.

İl ərzində məişət texnikasının kreditləşdirilməsində dair yeni kredit məhsulu və modulu yaradılmışdır. Yaradılmış məhsulun sayəsində mebel, məişət texnikası, kompüter və s. partnyorlar ilə xırda istehlak kreditləri ayrılmışdır. Xırda istehlak kreditləri üzrə satışın artırılması məqsədi ilə bu sahədə ən iri həcmli portfelə malik olan "Embawood" və "DNS Computers" şirkətləri Banka cəlb edilmişdir. Bu və məişət texnikasının kreditləşdirilməsinə dair əlavə olaraq 14 şirkətlə tərəfdaşlıq müqavilələri imzalanıb. İstehlak

**İstehlak kreditlərin və kredit portfelinin illər üzrə artımı, mln. AZN-lə.**




kreditlərin birbaşa satışları layihəsi çərçivəsində ümumi hesabda 55 müəssisə cəlb olunub. Bundan başqa, 2011-ci ildə xüsusi səyyar kredit məhsulu yaradılıb, 2012-ci ildə bu məhsul sayəsində birbaşa müəssisələrdə xırda istehlak kreditlərinin rəsmiləşdirilməsi planlaşdırılır. Eyni zamanda, tərəfdaşların təminatı ilə verilən xırda istehlak kreditlərinin silinməsini təmin edən avtomatlaşdırılmış sistem yaradılıb.

"Nağd kredit" və "AL Kart" kredit xətti üzrə loyallığının artırılması məqsədi ilə müsbət kredit tarixçəsi olan müştərilər üçün yeni məhsullar yaradılmışdır. Bütün təminatsız proqram istehlak kreditlərinin şərtləri bazar şərtlərinə uyğunlaşdırılmış və Bankda ilk dəfə bu məhsullar üzrə vahid "Şərtlər toplusu" yaradılıb.

Qeyd edək ki, "Nağd kredit"-lər üzrə satışlar hesabat ilinin mart ayından etibarən başlanıb. Buna baxmayaraq, 2011-ci ilin 10 ayı ərzində bu növ kreditlərin həcmi 35 dəfə artıb. Əhalinin artan tələbatı sayəsində fiziki şəxslərə Bank tərəfindən hər gün 1 mln. AZN-ə yaxın istehlak krediti ayrılıb. İl ərzində yeni verilən istehlak kreditlərinin sayı 35 minə yaxın olub, borcalanların sayı isə ilk dəfə olaraq 33,8 min nəfərə çatıb. Bu göstəricilər 2010-cu il ilə müqayisədə 2,5 dəfə artıb.

Kredit fəaliyyətində portfelin keyfiyyəti mühüm əhəmiyyət kəsb etdiyi üçün "Unibank"-da bu sahəyə xüsusi diqqət ayrılır. 2011-ci il ərzində Bankın kredit portfelində vaxtı keçmiş kreditlərin çəkisi 10,3%-dən 8,2% qədər enmişdir.



## Mikrokreditlər

2011-ci ilin yekunlarına görə "Unibank", ölkədə mikrobiznesin dəstəklənməsində ən yaxşı maliyyə təsisatı adını qazanaraq, Azərbaycan Mikromaliyyələşdirmə Assosiasiyasının (AMA) baş mükafatına layiq görüldü. Ötən ilin Bankın namizədliyi AMA-nın üç nominasiyasından ikisində irəli sürülmüşdü və bundan sonra nominantların sifarişlərinə, nüfuzlu beynəlxalq maliyyə təşkilatlarının nümayəndələrindən ibarət olan Assosiasiyanın mükafatlar üzrə Komitəsində baxılırdı. Nəticədə AMA-nın mükafatlar üzrə Komitəsinin qərarı ilə, "Unibank" 80 bal toplayaraq, "Azərbaycanda mikro-biznesləri dəstəkləyən təşkilat" nominasiyasında 30 bank və qeyri-bank kredit təşkilatları arasında ən yaxşı hesab edilmişdir.

Bankda mikrokreditlər üzrə portfel 2011-ci ildə 1,84 dəfə artaraq, 13,3 mln. manata çatıb. Bu növ kreditlər cəlb edən müştəri sayı ilk dəfə 6 min nəfər təşkil edib. Cəmi "Unibank" tərəfindən ayrılan mikrokreditlərin ümumi sayı isə 12 000 üstələyib.

Mikrokreditləri artıq Bankın regional filiallarında ən aktual kredit aləti hesab etmək olar. Belə ki, son bir il ərzində mikrokredit cəlb edən sahibkarların sayı 2800 nəfərdən 6000 nəfərə qədər artdığı zaman, onların 2/3-i məhz məhz regionları təmsil edir. Nəticədə regionların mikrokredit portfelindəki payı 68% bərabər olub, o cümlədən aqrar sahədə mikrobiznes quran müştərilərin payı son bir ildə 8,2%-dən 23,8%-dək artıb.

**Mikrokreditlər üzrə portfel, AZN-lə**




Mikrokreditlər 2008-ci ildən ən azı yarım il sahibkarlıqla məşğul olan şəxslərə 2 aydan 2 ilə qədər ayrılır. Mikrokreditlərin məbləği 200-dən 20 minə qədər şərti vahid təşkil edə bilər, girov qismində isə Bank tərəfindən, daşınmaz əmlakla yanaşı, avadanlıq, malların qalığı, kənd təsərrüfatı məhsulları və borcalanın mal-qarası da daxil olmaqla, digər qeyri-standart girov növləri qəbul edilir.

## İpoteka

2011-ci ildə Bankın ipoteka kreditləri üzrə məcmu portfeli yenidən artım nümayiş etdirərək 41,2 mln. manata yaxın təşkil edib. Bu zaman Azərbaycan İpoteka Fondunun (AİF) tərəfdaş bankı qismində "Unibank" bu Fond tərəfindən təkrar maliyyələşdirilən ipoteka kreditləri üzrə portfelini ilk dəfə olaraq 19,2 mln. manatadək artırıb. Son beş il ərzində isə (2006-2011-ci illər) AİF xətti ilə Bankın ayırdığı ipoteka kreditlərinin sayı 530-dək çatdırıldı. Ümumi saydan 46 kredit sosial ipoteka şərtləri əsasında ayrılıb. Sosial ipoteka kreditləri üzrə portfel 2011-ci ilin yekunlarına görə 1,4 mln. manata genişləndirildi.

Hesabat ili ərzində ipoteka kreditlərin məcmu həcmi 5,1% artırılıb. Eyni zamanda, yalnız AİF xəti ilə ayrılan kreditlərin məbləği 48,4%-lik artım nümayiş edib. Müvafiq olaraq, əhalinin imtiyazlı təbəqələrinə ayırlan sosial ipoteka kreditlərin həcmi həmin dövrdə 2,3 dəfə çoxalıb. 2010-cu ildə ümumi həcmi 5,95 mln. manat təşkil edən 152 ipoteka kredit ayrıldığı zaman, 2011-ci ildə bu məcmu məbləği 6,3 mln. manat olan 186 ipoteka krediti təqdim olunub. Maraqlıdır ki, AİF xətti ilə ayrılan ipoteka kreditlərin ümumi həcmində "Unibank"-ın payı 2011-ci ildə 5,2%-dən 6,5%-dək genişlənib. Orta hesabla Bankdan cəlb edilən hər ipoteka kreditinin məbləği 36 min AZN-dək azalıb.

Azərbaycan İpoteka Fondu 2005-ci ilin dekabrında yaradılıb və 2006-cı ilin martında ipoteka kreditlərinin verilməsinə başlayıb. O zamandan "Unibank" İpoteka Fondunun müvəkkil bankları sırasındadır. İpoteka kreditləri Fondun öz istiqrazları emissiyaları nəticəsində cəlb etdiyi vəsaitlər hesabına 3 ildən 25 ilədək maliyyələşdirilir. Kreditin maksimum həcmi 50 min manatı keçməməlidir, illik faiz dərəcəsi isə 8%-dən çox ola bilməz.

Dövlət büdcəsi vəsaitləri hesabına maliyyələşdirilən

# Pərakəndə biznes

sosial ipoteka kreditləri üzrə maksimal həcm 35 min manat, faiz dərəcəsi isə 4% təşkil edir.

Azərbaycan İpoteka Fondu tərəfindən təkrar maliyyələşdirilən ipoteka kreditləri üzrə müştərilərin sifarişləri "Unibank"-ın üç paytaxt (Yasamal, 17 saylı, Neftçilər) iki Gəncə və Sumqayıt filiallarında qəbul olunur. Müştərilərin rahatlığını təmin etmək məqsədi ilə bu növ kreditlər üzrə ərizələrin qəbulu gələcəkdə əksər bölgə filiallar tərəfindən də aparılacaq.

**Deposit məhsulları**
2011-ci ildə "Unibank" maliyyə vəsaitlərinin cəlb edilməsi istiqamətində yeni uğurlara nail olub. Bankın depozit portfeli 49,6 mln. manat və yaxud 29,5% artaraq, 217,5 mln. manata çatıb. Cəlb olunan vəsaitlərin əksər hissəsi bu zaman müddətli depozitlərin payına düşür və məcmu portfeldən 78% təşkil edir.

Hesabat ilinin yekunlarına görə fərdi müştərilər hesabına cəlb olunan depozitlər daha çox artım tempi göstərmiş, əhali əmanətləri 63 mln. manat və yaxud 56% artmışdır. Bankın depozit portfelində fərdi əmanətçilərin payı ilk dəfə olaraq 83% bərabər olub, onların sayı isə il ərzində 1,6 dəfə artmışdır. 2007-ci ildən Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun üzvü olan «Unibank» ötən il ərzində fərdi müştərilərlə 3743 depozit sazişi imzalayıb. Yeni açılan özəl əmanətlərin əksər hissəsi bu zaman Əmanətlərin Sığortalanması Fondunun şərtlərinə uyğun açılıb. Depozit məhsulları üzrə faiz dərəcələrinin endirilməsinə baxmayaraq, portfelin artımı kiçik

Fərdi əmanətlər və depozit portfelinin illər üzrə artımı, mln., AZN-lə




məbləğli manat əmanətlərinin cəlb olunması hesabına davam etmişdir. Bu məqsədlə il ərzində müddəti 12 ay və daha çox olan müştərilər, eləcə də həcmi 30 min manatadək əmanətlərin sahibləri eləcə də üçün xüsusi "+1 %" aksiyaları həyata keçirilib.

Bundan əlavə, depozitlərin minimal məbləğinə tələblər əhəmiyyətli dərəcədə endirilib. Belə ki, «Müddətli» depoziti üzrə minimal məbləğ 500 AZN, USD və ya EUR, «Proqressiv» əmanətlər üzrə isə minimal hədd 200 AZN, USD və ya EUR-ya endirilib. «Yığım» əmanəti üzrə isə yeni şərtlər xüsusi ilə diqqətə layiqdir. Artıq 50 AZN, USD və ya EUR-ya sahib olan hər bir şəxs, Bankın əmanətçisi olaraq, vəsaitlərini bu əmanət hesabına tədricən artıra bilər. Bütün əmanətçilərə yerləşdirdikləri depozitin 90%-i məbləğinə qədər imtiyazlı şərtlərlə kredit xəttindən istifadə imkanı təqdim olunub.

2011-ci ildə "Unibank" məşhur "Kimberly-Clarc" şirkəti ilə birlikdə "Huggies" mallarından geniş istifadə edən uşaqlar və onların valideynləri üçün stimullaşdırıcı lotereya aksiyası keçirdi. Bu aksiya çərçivəsində toplam məbləği 21 min manat təşkil edən 100 əmanət oynanılıb. Onlardan 10 əmanət - 500 AZN, 20 əmanət - 300 AZN, 30 əmanət - 200 AZN, 40 əmanət isə - 100 AZN məbləğində olub.



**Plastik kartlar**
2011-ci ili "Unibank"-da plastik kartlarının emissiyası və onlar üzrə əməliyyatların genişləndirilməsi ili kimi hesab etmək olar. Belə ki, hesabat ilində "MasterCard" və "Visa" kartları üzrə Bankın emissiya həcmləri 2,2 dəfə artırılıb. Nəticədə aktiv kartlarının sayı 26,7 minə çatdırılıb, bu saydan 18% kredit, 82% isə debet kartlarına aiddir. 2010-cu il ilə müqayisədə kredit kartlarının emissiyası 26,1% artdığı zaman, debet kartları üzrə sifarişlərin sayı 18,3% çoxalıb. Sifariş olunan kartların əksər hissəsi və yaxud 71,3% "Visa" beynəlxalq ödəniş sisteminin payına düşür. Buna baxmayaraq, "Unibank" 2011-ci ildə Azərbaycanda kart məhsullarının inkişafında uğur və nailiyyətlərinə görə "MasterCard" beynəlxalq ödəniş sisteminin nüfuzlu mükafatına layıq görülüb. Bank, ölkədə bu sistemə aid olan kartların sahiblərinin sayının ən böyük artımı - "Fastest Growing MasterCard MaestroCard Base in Azerbaijan" nominasiyasında qalib gəlmişdir. Müştərilərə göstərilən xidmətlərin rahat və əlverişli şərtləri, habelə onların hər birinin ehtiyaclarına fərdi yanaşma hesabına "Unibank" bu kart sahiblərinin sayını 2011-ci ildə 2 dəfə artırmışdır. Bu zaman premium seqmentinə aid olan "MasterCard Gold" və "MasterCard Platinum" kartları üzrə satışlar xüsusi təsir bağışlayır. Son iki il ərzində bu növ kartların emissiyası 3,5 dəfədən çox artmış, onlar üzrə qeydə alınan nağdsız əməliyyatların həcmi üzrə artım isə 660% təşkil etmişdir. Xatırladaq ki, Bank 2007-ci ildə "MasterCard" plastik kartlarının emissiyasına başlamış, 2008-ci ildə isə bu beynəlxalq ödəniş sisteminin ekvayeri olmuşdur.
2011-ci ildə Bank həmçinin plastik kart hesabları

2010-2011-ci illərdə kartların emmissiyası




2010-2011-ci illərdə debet və kredit kartlarının buraxılışı




üzrə ödənişlərin təhlükəsizliyinə və müvafiq infrastrukturunun inkişafına xüsusi diqqət vermişdir. Plastik kartlardan istifadə zamanı risklərin azaldılması üçün istifadə limitləri müəyyən edilərək hər növ plastik kart üzrə tətbiq edilmişdir. Quraşdırılan bankomat və POS-terminalların sayı 2010-cu il ilə müqayisədə 25% artmışdır. Onların toplam sayı nəticədə 280 ədəd təşkil etmişdir. Məşhur "Citimart" ticarət mərkəzlərində POS-terminallar üzərindən əməliyyat həcmini artırmaq məqsədi ilə "VİSA" ödəniş sistemi ilə birgə motivasiya aksiyası həyata keçirilib. Bundan başqa, bütün tipli plastik kartlarının sahibləri üçün on-layn ödənişlər sistemi inkişaf etdirilmişdir. Bankın saytında "GoldenPay" şirkəti ilə birgə yeni "Billpay" ödəniş sistemi tətbiq edilib. Eyni zamanda, müştərilərin on-layn rejimində ödəyə biləcəkləri xidmətlərin sayı 20-dən 30-a qədər genişləndirib. "Azercell Telekom"-la bərabər artıq dörd mobil rabitə operatoru, bir sıra sığorta şirkətləri, İnternet, stasionar rabitə və kabel televiziyası provayderləri tərəfindən göstərilən xidmətlərin, habelə kommunal haqlarının ödənişlərini «Unibank» saytından aparmaq mümkündür. On-layn ödəniş sistemində «Şəxsi kabinet» opsiyası yaradılıb, bu da bütün ödənişlər, plastik kartlar, onların sahibi və ona məxsus abunə kodları barədə bütün məlumatları yaddaşda saxlamaq imkanı verir. Bu sistemdə qeydiyyatdan keçən istifadəçilər istənilən zaman arxiv yaratmaq və ödənişlər üzrə çıxarışları çap edə bilərlər. Onlar həmçinin Bankın və onun tərəfdaşları tərəfindən tətbiq olunan bonus proqramları və lotereyalarda iştirak edə biləcəklər.




## Azərbaycan xanlıqlarının sikkələri

Qarabağ və Gəncə xanlığında zərb olunan gümüş abbası (2) və yarımabbası (3). İrəvan və Şəki xanlığında dövr edən mis fuluslar (1,4), XVIII-ci əsr

# Pərakəndə biznes

Pul köçürmələri;
2011-ci ildən "Unibank" ASC-si daha iki pul köçürmələri sistemi – «Allure» və «Bıstraya Poçta» ilə əməkdaşlığa başladı. Ötən il ərzində həmçinin "Lider" və "MİGOM" pul köçürmələri sistemləri ilə əməkdaşlıq bərpa olundu və Bank Azərbaycanda eyni zamanda beynəlxalq pul köçürmələri sistemləri operatorlarının sayını 14-ə çatdıran maliyyə qurumları sırasında birincilərdən oldu. Bankın yeni və əvvəlki tərəfdaşı olan sistemlər dünyanın 190 ölkəsindən çoxunda fəaliyyət göstərərək, ümumilikdə 500 min təcili qəbul və göndəriş məntəqəsini birləşdirir. Onlardan hər biri pul köçürmələrini tez, rahat və etibarlı şəkildə, istiqamətindən və xidmət məntəqəsindən asılı olmayaraq 0,3%-dən başlayan tariflərlə həyata keçirməyə imkan verir.

Bank xidmətləri bazarının bu seqmentində müşahidə olunan kəskin rəqabətə baxmayaraq, «Unibank» pul köçürmələrinin həcmini yenidən artırdı. Belə ki, 2011-ci ilin yanvar-dekabr aylarında pul köçürmələri üzrə Bankın dövriyyəsi 76,4 mln. manat təşkil edib ki, bu da ötən ilin analoji göstəricisindən 55% çoxdur. Fiziki şəxslər tərəfindən hesab açılmadan həyata keçirilən təcili pul köçürmələrinin sayı hesabat ili ərzində ilk dəfə olaraq 137 mini ötüb və müvafiq olaraq 63% artıb. Bu zaman ay ərzində «Unibank»-ın xidmət şəbəkəsi vasitəsi ilə aparılan köçürmələrin orta miqdarı 7,9 mindən 13,7 minə qədər artaraq, 2010-cu ilin orta aylıq göstəricisini ikiqat üstələyib. Nəticədə bazarın bu seqmentində "Unibank"-ın payı 5,2% təşkil edib. Orta hesabla bir pul köçürmənin məbləği 554 AZN bərabər olub.

2010-2011-ci illərdə pul köçürmələri üzrə dövriyyə, mln. AZN-lə




Qeyd etmək lazımdır ki, bu xidmət növünə tələbatı stimullaşdırmaq üçün oktyabrın-dekabr aylarında "Unibak"-ın bütün filial və şöbələrində "LİDER-dən kompliment" aksiyası keçirilib. "LİDER" beynəlxalq pul köçürmələri sistemi ilə birgə təşkil olunan aksiya çərçivəsində, Bankın, bu sistem vasitəsilə ən azı 5 pul köçürməsi göndərmiş bütün müştəriləri (köçürmənin məbləğindən asılı olmayaraq) "Park Cinema" kinoteatrında seanslara pulsuz iki nəfərlik biletlər əldə ediblər. Bundan əlavə, Bank, köçürmələrin sayına görə 5 qabaqcıl müştəriyə smartfonlar hədiyyə edib. Xatırladaq ki, «Unibank»-da pul köçürmə sistemləri vasitəsi ilə gün ərzində 500$/500EUR (və ya 20 000 RUR) həcmində məbləği göndərən və ya qəbul edən müştərilər əlavə bonus kimi mobil telefonları üçün danışıq kartı hədiyyə qazanırlar. Bu bonuslar "Unibank"-ın paytaxtdakı, eləcə də Gəncə, Sumqayıt, Şəmkir, Quba, Mingəçevir, Şəki və Lənkəran filiallarında verilir.



# Xidmət şəbəkəsi

Əhali və biznes-dairələrinin keyfiyyətli bank xidmətləri ilə təmin olunması üçün "Unibank" 2011-ci ildə xidmət şəbəkəsində bir sıra tədbirlər keçirdi. İlk əvvəl filiallarda növbələri tənzimləyən cihazların quraşdırılması aparıldı. Bundan başqa, Bank yeni ATM və "Cash-in" cihazların alınmasına və onların proqram təminatının sazlanması başladı. Bu cihazların quraşdırılması 2012-ci il ərzində aparılacaq. Bankın xidmət şəbəkəsində müvafiq texniki, inzibati və təmir işləri ilə bərabər, filialların yerləşməsində optimizasiya keçirilib. Nəticədə "Unibank"-ın Baş ofisi yaxınlığında yerləşən 17 saylı filial fərdi müştərilər üçün daha rahat olan ünvana - Bül-Bül prospekti 10-a keçirildi. Paytaxtın "Sahil" metro stansiyasına yaxın olan bu ünvanda filialın iş rejimi də genişləndi - müştərilərə müvafiq xidmətlər artıq saat 21-dək göstərilir.

Xidmət şəbəkədə aparılan optimallaşdırma bölgələrdə fəaliyyət göstərən filiallardan da kənar keçməyib. Belə ki, ötən ilin avqust ayında "Unibank"-ın Şəki filialı bu məqsədlər üçün yeni tikilən inzibati binaya köçüb. Nəticədə Bankın xidmət nöqtəsi güclü işgüzar ənənələri ilə seçilən Şimal bölgədə ən iri bank filialına çevrildi. Filial Şəki şəhərin mərkəzində yerləşir və Azərbaycan Respublikası Mərkəzi Bankının bütün tələblərinə cavab verir. Yeni binada Şəki, Qax və Zaqatala bölgələrinin əhalisinə və yerli müəssisələrə bütün növ bank məhsulları və xidmətləri təklif olunur. Bundan başqa, 2011-ci ildə Gəncə şəhərində yerləşən Bank şöbəsinə filial statusu verildi. Oğuz və Tovuz şəhərlərində isə müvafiq olaraq Şəki və Şəmkir filiallarının nəzdində xüsusi mikrokreditləşdirmə üzrə məsləhətlər ofisləri açıldı. Nəticədə, "Unibank"-ın xidmət şəbəkəsi bölgələrdə 10 nöqtəyədək genişləndi. Qeyd edək ki, hesabat ilinin sonuna Bakı, Gəncə, Sumqayıt, Şəki, Şəmkir, Mingəçevir, Quba və Lənkəranda yerləşən Bank filiallarında xidmət alan müştərilərin sayı ilk dəfə olaraq 220 min təşkil etdi.

"Unibank"-ın xidmət şəbəkəsi Mərkəzi ofislə bərabər 27 filial və şöbədən ibarətdir:

1. Mərkəzi ofis, Bakı şəhərində fəaliyyət göstərir;
2. "Gəncə" filialı, 1993-cü ilin iyun ayının 22-dən Gəncə şəhərində fəaliyyət göstərir;
3. "STB" filialı, 2002-ci ilin oktyabr ayının 15-dən Bakı şəhərində fəaliyyət göstərir;
4. "Yasamal" filialı, 2005-ci ilin aprel ayının 7-dən Bakı şəhərində fəaliyyət göstərir;
5. "Neftçilər" filialı, 2006-cı ilin may ayının 26-dan Bakı şəhərində fəaliyyət göstərir;
6. "Sumqayıt" filialı, 2006-cı ilin avqust ayının 28-dən Sumqayıt şəhərində fəaliyyət göstərir;
7. "Nərimanov" filialı, 2007-ci ilin may ayının 1-dən Bakı şəhərində fəaliyyət göstərir;
8. "Əcəmi" filialı, 2007-ci ilin may ayının 11-dən Bakı şəhərində fəaliyyət göstərir;
9. 8 saylı filial, 2007-ci ilin sentyabr ayının 10-dan Bakı şəhərində fəaliyyət göstərir;
10. 9 saylı filial, 2007-ci ilin noyabr ayının 20-dən Bakı şəhərində fəaliyyət göstərir;
11. 10 saylı filial, 2007-ci ilin oktyabr ayının 22-dən Bakı şəhərində fəaliyyət göstərir;
12. 12 saylı filial, 2008-ci ilin fevral ayının 1-dən Bakı şəhərində fəaliyyət göstərir;
13. 13 saylı filial, 2008-ci ilin fevral ayının 25-dən Bakı şəhərində fəaliyyət göstərir;
14. 14 saylı filial, 2008-ci ilin mart ayının 30-dan Bakı şəhərində fəaliyyət göstərir;
15. 15 saylı filial, 2008-ci ilin mart ayının 24-dən Bakı şəhərində fəaliyyət göstərir;
16. 16 saylı filial, 2008-ci ilin iyun ayının 17-dən Bakı şəhərində fəaliyyət göstərir;
17. 17 saylı ("Sahil") filialı, 2008-ci ilin yanvar ayının 7-dən Bakı şəhərində fəaliyyət göstərir;
18. "Şəki" filialı, 2008-ci ilin iyul ayının 1-dən Şəki şəhərində fəaliyyət göstərir;
19. "Şəmkir" filialı, 2008-ci ilin iyul ayının 29-dan Şəmkir şəhərində fəaliyyət göstərir;
20. "Quba" filialı, 2008-ci ilin sentyabr ayının 8-dən Quba şəhərində fəaliyyət göstərir;
21. 19 saylı filial, 2008-ci ilin dekabr ayının 16-dən Bakı şəhərində fəaliyyət göstərir;
22. "Mingəçevir" filialı, 2009-cu ilin yanvar ayının 15-dən Mingəçevir şəhərində fəaliyyət göstərir;
23. "Kəpəz" filialı, 2010-cu ilin yanvar ayından Gəncə şəhərində fəaliyyət göstərir;
24. "Lənkəran" filialı, 2010-cu ilin fevral ayının 3-dən Lənkəran şəhərində fəaliyyət göstərir;
25. Xırdalan filialı, 2012-ci ilin aprel ayının 13-dən Xırdalan şəhərində fəaliyyət göstərir;
26. Tovuz bölməsi, 2011-ci ilin mart ayından Tovuz rayonun Tovuz şəhərində fəaliyyət göstərir;
27. "1 saylı" Mübadilə Şöbəsi, 2010-cu ilin dekabr ayının 10-dan Bakıda fəaliyyət göstərir.




Çar Rusiyası tərəfindən
buraxılan və Azərbaycanda
1850-1912-ci illərdə
dövr edən əskinazlar

# Korporativ biznesə xidmət

2011-ci ili korporativ müştərilər və biznes-dairələrinə "Unibank" tərəfindən göstərilən xidmətlərin inkişafında önəmli dövr olduğunu adlandırmaq olar. İlk növbədə ona görə ki, hesabat ilində korporativ xidmətlər bloku üzrə bir neçə vacib göstəricilərin artımı müşahidə edilir. Korporativ müştərilərin kredit portfelində artım qeyd olundu, hesablaşma-kassa əməliyyatlarının həcmi və ən əsası sayı yüksəldi, xidmət olunan müştərilərin biznes-fəaliyyəti isə önəmli sürətdə genişləndi. Bundan başqa, il ərzində korporativ müştərilər və biznes sahiblərindən cəlb olunan depozit portfeli əvvəlki il ilə müqayisədə 11,1% artırılıb. Nəticə olaraq, son zamanlar bank xidmətləri bazarında ən çətin sayılan xidmətlər blokunun inkişafında, sadalanan göstəricilərlə bərabər maliyyə effektivlik də artıb. Bankın mənfəətinə birbaşa təsir göstərən problemli korporativ kreditlərin uğurlu idarə olunmasıdır. Bu növ borcalmaların sayı və həcmi 2011-ci ildə azaldılıb, bu da öz növbəsində yeni müştərilərin kreditləşdirilməsində konservativ yanaşmadan kənar olmağa imkan verir.

2011-ci ildə "Unibank" qarşısında duran prioritetlərdən biri tranzaksiya biznesinin inkişafı olub. Bunun üçün korporativ müştərilərin əməliyyatlar modeli təkmilləşdirilərək, Bankın komissiya siyasətində isə müştərinin loyallığı naminə güzəştlərin tətbiq olunması başlanıb. Atılan addımlarla bərabər korporativ müştərilər tərəfindən aparılan əməliyyatların daha tez və rahat həyata keçirilməsi üçün İnternet-bank proqram təminatının interfeysi və funksionallığı təkmilləşdirilib. İl ərzində korporativ müştərilərin sayı 3 926 -dan 4 041-ə qədər artıb.

2011-ci il ərzində «Unibank» fəal sürətdə müştərilərin ticarət və ixrac maliyyələşdirməsini aparıb. Bu növ əməliyyatlarının həcmi 2010-cu il ilə müqayisədə 37% artaraq, 16 milyon manata bərabər olub. Bank ixrac-kredit agentliklərinin zəmanətlərindən və strukturlaşdırılmış maliyyələşdirmə alətlərindən istifadə etməklə ticarət maliyyələşdirilməsi alətlərini inkişaf etdirib. Bu zaman zəmanətli əməliyyatlardan əldə olunan gəlir 280 min manata yaxın olub. Korporativ biznesə göstərilən inkassasiya xidmətlərinin göstərilməsi üzrə gəlirlər də 92 min manat təşkil edib.

Ənənəvi olaraq, korporativ müştərilərin kreditləşməsi «Unibank» üçün əsas hədəflərdən biridir. 2011-ci il ərzində Bank korporativ müştərilərə 63 milyon manat məbləğində kreditlər ayırıb. Təbii ki, Bankın rəqabət üstünlükləri sırasında kiçik və orta biznesin dəstəklənməsi olub. Bu mənada hesabat ili də istisna təşkil etməyib, 2011-ci ildə Bank sabit maliyyə vəziyyəti olan kiçik və orta müəssisələrə 59 kredit vəsaiti ayırıb. Kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsində inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanmış, beynəlxalq qurumların tövsiyələri nəzərə alınmışdır. Sənaye və tikintidə işçilərin sayı 50 nəfərdən az və illik dövriyyəsi 500 min manatadək, kənd təsərrüfatında işçilərin sayı 25 nəfərdən az və illik dövriyyəsi 250 min manatadək, topdansatış ticarətdə işçilərin sayı 15 nəfərdən az və illik dövriyyəsi 1 milyon manatadək, pərakəndə satış ticarət, nəqliyyat, xidmət və digər iqtisadi fəaliyyət növlərində işçilərin sayı 10 nəfərdən az və illik dövriyyəsi 250 min manatadək olan müəssisələr kiçik sahibkarlıq subyektləri hesab olunurlar. İl ərzində Bank Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun müvəkkil kredit təşkilatı kimi kredit yarmarkalarında iştirak etmişdir. Nəticədə güzəştli kredit almaq üçün sahibkarlıq subyektlərinin onlarla müraciətləri qəbul edilib və qeydiyyata alınıb. Qeyd edək ki, Fond tərəfindən aparılan monitorinq zamanı güzəştli kredit vəsaitlərinin təyinatdan kənar istifadə edilməməsi halları aşkar edilməyib.

Bundan başqa, 2011-ci ilin sonunda sahibkarlar və korporativ müştərilər üçün «Faizlər hədiyyə» aksiyası keçirildi. Aksiyanın şərtlərinə görə, ilk ayda müştərilər tərəfindən ödənilməyəcək faizlər hesabına biznes-kreditlərin dəyəri aşağı endirilib. Belə ki, 2011-ci ilin dekabrın 1-dən 2012-ci ilin yanvarın 31-dək müraciət etmiş sahibkarlar və korporativ müştərilər üçün, kreditin cəlb olunduğu ilk ay ərzində faiz hesablanmırdı. Aksiyanın şərtləri biznes-kreditlərinin, demək olar ki, bütün növlərinə, o cümlədən dövriyyə vəsaitlərinin artırılması, əsas vəsaitlərin əldə olunması, malların alınması, xidmətlərin ödənilməsi, vacib sövdələşmələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün cəlb olunan vəsaitlərə şamil edildi. Biznes-kreditlər üzrə tətbiq olunan illik faiz dərəcəsi 18% təşkil edib, kreditləşmə müddəti 1 ildən 4 ilə qədər, güzəştli şərtlərlə kreditlərin məbləği isə 20000-500000 AZN-ə qədər olub. Aksiyanın əsas üstünlüyü kreditin qaytarılması müddətinin təxirə salınması yox, ilk ay üçün faiz dərəcəsinin ödənilməməsidir. Bu da müştəri xərclərinin azaldılması və "Unibank"-ın Azərbaycan biznesinin etibarlı tərəfdaşı kimi mövqeyini möhkəmlənməsinə xidmət edir.



# İnformasiya texnologiyalari

"Unibank"-ın yenilikçi xidmətlərlə seçilməyi və uğuru bir çox hallarda tətbiq və istifadə etdiyi informasiya texnologiyalardan asılıdır. Hesabat ili ərzində kredit fəallığın nəzərə çarpacaq dərəcədə artımını nəzərə alsaq, informasiya texnologiyaları sahəsində də bir neçə layihənin həyata keçməsini qeyd etmək lazımdır. İlk əvvəl Bankın skorinq sistemləri yeni ORACLE platformasına keçirildi. Nəticədə bütün məhsullar üzrə paket sənədlərin formalaşması və çap edilməsi mümkün oldu. Bu məhsullar sırasına "Al Kart" kredit kartları ilə bərabər, Nağd kredit, blank kreditləri və Bankın tərəfdaşları vasitəsi ilə (Embawood, DNS və digər) təqdim edilən kreditlər daxil edildi. Bundan başqa, ilk dəfə olaraq 2010-cu ildə işə salınan "UCAS" Kredit risklərinin təhlili sisteminin korporativ müştərilərin sifarişlərinə şamil olunması təmin olundu. 2011-ci ildə Bankda İT-infrastrukturun daima artan əməliyyatların həcminə uyğunlaşdırılması prosesi başa çatdırılmışdır, server və kompüter parkının yenilənməsi yekunlaşdırılıb, yeni nəsil rabitə sisteminin proqram təminatı təkmilləşdirilib. Eyni zamanda, gələcəkdə xüsusi əhəməyyət kəsb edən və həyata keçirilməsi 2012-ci ilə planlaşdırılan taksit kartlarının satılması üçün xüsusi proqram təminatı hazırlanmışdır. Ötən ilin sentyabr-oktyabr aylarında isə problemli aktivlərin idarə edilməsi və problemli müştərilər tərəfindən verilən sifarişlərin xüsusi stop-listə avtomatik olaraq əlavə olunması sistemi tətbiq edildi.

Bank xidmətinin yüksək texnoloji istiqaməti kimi 2011-ci ildə İnternet-bankinq sistemi inkişaf etdirilərək, müştərilərə vaxtlarına əhəmiyyətli dərəcədə qənaət etməyə imkan verən yeni interfeysdə təqdim olundu. Bundan başqa, bu sistemdə dünyanın istənilən nöqtəsindən həyata keçirilə bilən yeni funksiyalar tətbiq olundu.

Qeyd edək ki, "Unibank"-da istifadə olunan informasiya texnologiyalarına dair hesabat hər Mərkəzi Banka verilən prudensial hesabatlarla birgə təqdim olunur. Bank İnformasiya Texnologiyaları sahəsində apardığı işləri 2012-ci ildə də davam etdirməyi planlaşdırır.



«Unibank»-ın kredit xidmətlərinə biznes-qurumların ehtiyacı artır. Xidmətlərimizə artan tələbatı nəzərə alaraq, biz biznes-kreditlərimizi daha sərfəli edərək, ədalətli şərtlərlə maliyyə xidmətləri göstəririk və bununla da iş adamlarının etimadını qazanırıq»

**Vaqif Qəribli**
Korporativ xidmətləri üzrə direktor




## Bakı şəhər bələdiyyəsi tərəfindən çap olunan pul əskinazları

Nominalı 50 qəpik, 1 və 25 rubl təşkil edən ilk "Bakı pulları", yanvar-iyul 1918-ci il

# İnsan resursları

Personalın inkişafı
Azərbaycanın ən iri özəl banklarından biri olan «Unibank», məsuliyyətli iş təminatçısı statusunu təsdiqləyərək, əməkdaşlarının sayının daima artırır. Belə ki, 2011-ci ildə Bankın komandasına əlavə olaraq 245 yeni mütəxəssis cəlb olunub. Nəticədə işçilərin ümumi sayı 17,6% artaraq ilk dəfə 835 nəfərə çatıb. Artıq bu göstərici ölkənin özəl bank sektorunda çalışanların 10% deməkdir.

İşə cəlb olunan əməkdaşların əksər hissəsi vakant yerlərə elan olunan açıq müsabiqələrdə seçilmişdilər. Vakansiyalar üzrə aparılan seçim namizədlərin səriştəsi, iş təcrübəsi, təlim və təhsil səviyyəsindən irəli gələn amillərə əsaslanırdı. Mikromaliyyə alətlərin və pərakəndə biznesinin sürətli inkişafını nəzərə alaraq, cəlb olunan yeni işçi heyətindən az olmayan hissəsi bu sahələrdə çalışacaq. İnsan Resursları bölməsi tərəfindən onlar üçün Bankın "Unitraining" təlim mərkəzində Alman-Azərbaycan Fondu (GAF) ilə birlikdə xüsusi treninq təşkil olunmuşdur.

Bundan başqa, bankdaxili attestasiyalar nəticəsində aparılan rotasiyalar ötən il 150 işçiyə şamil olunub. Maraqlıdır ki, onlardan 120 nəfər məhz yuxarı vəzifələrə keçirilib. Eyni zamanda, mövcud işçi heyəti arasında maddi həvəsləndirmə addımları aparılıb. Əməkdaşların 50%-nin əmək haqları 10-15% qaldırılmış, işçi heyətinin 1/3 hissəsində isə maddi həvəsləndirmə addımları tutduqları vəzifə və peşə dərəcələrin artırılması ilə bərabər keçirilib. Belə ki, 2011-ci ildə menecerlər və supervayzer vəzifələrinə 24 nəfər sıravi işçi dəvət olunub. Eyni zamanda, bütün filial menecerləri və baş mühasibləri Azərbaycan Respublikası Mərkəzi Bankının tələblərinə uyğun Bank Tədris Mərkəzində müvafiq sertifakasiya prosedurunu uğurla başa vurublar.

Motivasiya proqramları
2011-ci ilin aprel ayında kiçik və orta biznes sahiblərinin Banka cəlb olunması üzrə əməkdaşlar arasında motivasiya proqramına start verildi. Əsas müsbət nəticə kimi, Bankın 33 əməkdaşı tərəfindən ümumi məbləğləri 2,815 mln. manata çatan 53 kreditin ayrılmasında iştirakını qeyd etmək olar. Əməkdaşların fəallığı hesabına iki yeni müştəri 130 min manat həcmində zəmanətlərin verilməsinə cəlb olunub. Bundan başqa, daha 13 korporativ müştəri "Unibank"-ın hesablaşma-kassa xidmətlərindən istifadə etməyə başlayıb. Sadalanan əməliyyatlardan Bankın əlavə qazancı 65,47 min manat təşkil etdiyi halda, ötən ilin aprel ayında start götürən motivasiya proqramında iştirak edənlərə bu məbləğin 13% ödənilib.

İnsan resursları bölməsinin iştirakı ilə 2011-ci ildə "Unibank"-da "Yeni İDEA" layihəsinə start verildi. Əməkdaşların təşəbbüsünü dəstəkləyən Bank rəhbərliyi, onlar tərəfindən irəli sürülən hər bir ideyaların göndərilməsi, toplanması və öyrənilməsi üçün xüsusi sistem yaratdı. "Yeni İDEA" layihəsi Bankın struktur bölmələrinin işinin təkmilləşdirilməsi, müştəri xidmətinin yaxşılaşdırılması, məhsul xəttinin genişləndirilməsi məqsədi ilə səmərələşdirici təkliflərin qeydə alınmasına və təhlil olunmasına yardım edir. Bir nəticə kimi il ərzində bu layihə çərçivəsində onlarla əməkdaşdan 100 yaxın təklif və ideyalar irəli sürülmüş. Təklif və təşəbbüslərin bir neçəsi artıq həyata keçirilir. Cəmi 75 müəllifin təklifləri sırasında 24 səmərəli təşəbbüs təqdirəlayiq və ən əsası aktual hesab edilib.

Bankın İnsan resursları bölməsi tərəfindən mütəmadi təşkil olunan işlərdən biri "İşçi məmnunluğu" mövzusunda sorğudur. 2011-ci ildə keçirilən sorğuda ilk dəfə olaraq 406 nəfər iştirak edib. Əsas məqsəd əməkdaşların iş həyatında məmnun və qeyri-məmnun olduğu vəziyyətlər barədə kifayət qədər məlumat əldə etmək idi. İşçilərə təklif olunan 50 sualdan hər birinə cavablar məmnunluq dərəcələrini əks etdirən hazır cavab formaları təklif olunurdu. Suallar 3 qrup üzrə bölünmüşdür: komanda ruhu və idarəetmə, motivasiya və HR ilə əlaqəli fəaliyyət. Motivasiya mövzusunda verilən sualların cavabları, əməkdaşların əksər hissəsində (71%) məsələyə müsbət yanaşmasını aşkarlayıb. Eyni zamanda, İnsan resursları bölməsinin işinə aid verilən cavablar, işçilərin "Unibank"-da tətbiq olunan HR-siyasətdən razı qalmaqlarına dəlalət edirlər. Qeyd edək ki, obyektivlik naminə sorğu məhz anonim sürətdə təşkil olunub.

Gənclərlə iş
HR-menecmentin təşəbbüsü ilə hesabat ili ərzində Bankda 200-ə yaxın tələbə təcrübəkeçmə proqramlarında iştirak edib. Onların cəlb olunması müxtəlif dövlət və özəl universitetlərin karyera mərkəzləri ilə yaradılan sıx əməkdaşlıq nəticəsində təmin olunub. Bu zaman, əlavə işçi qüvvəsinin dəvət olunması ilə bərabər, gənclərin gələcək peşələrinə



adaptasiyaları üçün bütün lazımi şərait yaradılıb.

İlin sonunda iqtisadi profilli universitetlərdə təhsil alan istedadlı tələbələr arasında "UniŞans" müsabiqəsi keçirildi. Seçilən tələbələrə 100 AZN məbləğində xüsusi iki illik təqaüdün ödənilməsi barədə qərar çıxarıldı. Layihənin daimi əsaslarda həyata keçirilməsi 2012-ci ildən aparılır.

Unitraining
İl ərzində "Unitraining" təlim mərkəzində 80 yaxın treninq keçirilib. Onlardan 27 təlim proqramı aktual sayılan bankdaxili prosedurlara və qaydalara aid olub. Təlim proqramlara 800 nəfər işçi cəlb olunub. Təlim aparan Bank işçilərin sayı bu zaman 24-ə çatdırılıb.

2011-ci ildə "Unitraining" təlim mərkəzində məşhur rusiyalı biznes-trenerlərin iştirakı ilə idarəetmə strategiya və təlimlərin peşəkar təşkili üzrə xüsusi təlimlər keçirilib. Miqyaslı maliyyə və istehsal qurumlarda iyirmi illik təcrübəsi olan Rusiyanın "TrenerPROFİ" Mərkəzinin təmsilçisi Natalya Krasnova, Bankın 25 menecerləri üçün layihələrin idarə olunması, strategiyaların qurulması, təşkilatı strukturların optimallaşdırılması, eləcə də hər bir işçinin töhvəsini əks etdirə bilən əmsalların (Key Performance İndicators), hesablanması üzrə treninq keçirib. Üç gün davam edən intensiv təlimlərdə onlarla menecerlərlə bərabər, Bankın rəhbərləri də iştirak edib. Bu zaman xarici treyner tərəfindən operativ və strateji idarəetmə sahəsində müsbət xarici təcrübələrə xüsusi diqqət yetirilib. Bundan başqa, daha bir tanınmış xarici ekspert tərəfindən "Trenerlər üçün treninq" mövzusunda korporativ təlim təşkil olunub. Bu təlimlərdə 30-dan çox mütəxəssis iştirak edib. Treninqləri məşhur "DeltaKredit" bankının treninqlər və personalın inkişafı mərkəzinin rəhbəri, London Metropolitan University-nin yetirməsi Valentina Satarova keçirdi.




## Bakı kommunasının dövriyyəyə buraxdığı pullar

Bakı şəhər təsərrüfatı Şurasının əskinazları, nominal – 10, 25 və 50 rubl, iyul-sentyabr 1918-ci il

# Korporativ məsuliyyət

"Unibank" pərakəndə bankçılıqda Azərbaycanda liderlərdən biri sayıla bilər və daima inkişafda olan ölkəmiqyaslı özəl maliyyə təsisatı kimi korporativ sosial məsuliyyət proqramlarına xüsusi önəm verir. Təbii ki, Bankın səhmdarları, menecmenti və sıravi əməkdaşlarının əsas məqsədi biznesin inkişafına nail olmaqdır. Bu nailiyyət ilk növbədə müasir korporativ idarəetmə üsulları əsasında geniş müştəri kütləsi və bütöv cəmiyyətlə kommunikasiyaların qurulması vasitəsi ilə əldə olunur. Bank işinin sosial məsuliyyət prinsiplərə əsaslanaraq aparılması bu zaman əldə ediləcək maliyyə nəticələrlə bərabər cəmiyyətdə də müsbət sosial-iqtisadi dəyişikliklərə şərait yaradır. Eyni zamanda, "Unibank" üçün artıq illərlə ölçülən korporativ sosial məsuliyyət gələcək inkişafda müəyyən strateji risklərin minimallaşdırılması deməkdir.

Sosial məsuliyyətli maliyyə təsisatı kimi, "Unibank" üç prioritet sahələrdə fəaldır:

**Bank biznesi**

İqtisadiyyatın qeyri-neft sahələrinin maliyyələşdirilməsi;
Kiçik və orta sahibkarların dəstəklənməsi;
Əhaliyə gəlir gətirən və sosial əhəmiyyət daşıyan pərakəndə xidmətlərin inkişafı;
Dövlət qurumlarına bank xidmətlərin göstərilməsi;

**Məsuliyyətli iş təminatçısı**

Komanda quruculuğu
Yeni iş yerlərinin açılması;
Loyal əməkdaşların peşəkar karyera inkişafı və maddi stimullaşdırılması;
Korporativ dəyərlərin və mədəniyyətin inkişafı.

**Cəmiyyətlə iş**

İdman, elm və mədəniyyət sahələrində layihələrin dəstəklənməsi;
Azərbaycan biznesinin nüfuzunun qaldırılması;
Terorizmin maliyyələşdirilməsinə və qanunsuz gəlirlərin leqallaşdırılmasına qarşı tədbirlər.



Öz kredit fəaliyyətində "Unibank" ölkə iqtisadiyyatında prioritet sahələrin inkişafı zərurətini daima nəzərə alır. Bankın kredit siyasəti uzun illərdi ki qeyri-neft sektorundakı sahələrin inkişafına yönəldilib və bu amil bir daha onun sosial məsuliyyətli təsisat olduğuna dəlalət edir. 2011-ci ildə Bank kiçik və orta biznesin inkişafına maliyyə dəstəyi ilə ölkədə yüzlərlə vətəndaşların işlə təmin olunmasında fəal iştirak edib. Məlumdur ki, kiçik və orta biznes sahibləri Bankın biznesin dəstəklənməsində əsas müştəri seqmenti sayılır. Bu növ müştərilərə hesabat ilində daha uzunmüddətli və ən əsası güzəştli şərtlərlə kredit vəsaitləri ayrılıb. Bu zaman faiz dərəcələrin endirilməsi ilə bərabər kredit qərarların çıxarılması vaxtı da azaldılıb. Eyni zamanda "Unibank"-ın əhaliyə təklif etdiyi yeni xidmətlər də minlərlə müştərilərin maddi rifahlarının artırılmasına şərait yaradır. Bu iş həm Bakıda, həm bölgələrdə bərabər sürətdə davam etdirilir. Bu sırada mikrokreditləşdirmə alətlərinin inkişafını xüsusi ilə qeyd etmək olar. 2011-ci ildə "Unibank" Azərbaycan Mikromaliyyələşdirmə Assosiasiyası tərəfindən ölkədə mikrobiznesin dəstəklənməsində ən yaxşı maliyyə təsisatı adına layiq görüldü.

Cəmiyyətdə tələbat artan sosial yönümlü pərakəndə xidmətlərindən biri ipoteka kreditləridir. Bu sahədə "Unibank" ASC-si Azərbaycan İpoteka Fondunun tərəfdaş banklarından biri kimi fəal olaraq qalır. 2011-ci ildə Bankın filialları vasitəsi ilə 223 vətəndaş ipoteka krediti cəlb edə bilib, onlardan 14 isə sosial ipoteka kreditlərinin güzəştli şərtlərindən faydalana bilib.

Bank işinin xüsusi diqqət tələb edən və həssas hissəsi müştərinin əməliyyatları və gəlirləri haqqında məlumatların qorunmasıdır. Demək olar ki, fəaliyyətimizin xüsusiyyəti ondan ibarətdir ki, hər bir müştərinin fərdi gəlirləri və xərcləri barədə məlumat qanunsuz olaraq digər tərəflərə ötürülməməli və kənar şəxslərin müdaxilələrindən daimi uzaq olmalıdır. Bu sahədə 2011-ci ildə əsas diqqət İnternet-bankinq sisteminin və orada aparılan ödəmələrə yetirilib. "VerySign" və "3D Secure" texnologiyaların tətbiqi isə eyni zamanda minlərlə kart sahiblərinin əməliyyatlarının təhlükəsizliyini təmin edib.

"Unibank"-da tətbiq olunan idarəetmə üsulları Əmək və Mülkü məcəllələrə, milli korporativ və antiinhisar qanunvericiliyə tam uyğundur. Bankın fəaliyyəti tərəfdaşların və maraqlı ola biləcək tərəflərin mövqelərinə müvafiqdir, xüsusi diqqət səhmdarların və sərmayədarların maraqlarına yetirilir. Təsadüfi deyil ki, bu zaman ən geniş müştəri kütlələr və maraqlı tərəflərlə daimi interaktiv dialoq aparır. Maraqlı tərəflər qismində ilk növbədə Bankın səhmdarları və investorları, əməkdaşlar və müştərilər, işgüzar tərəfdaşlar, peşəkar və yerli icmalar, ictimai təşkilatlar və kütləvi informasiya vasitələri çıxış edirlər. Sadalanan təbəqələrlə qarşılıqlı əlaqə korporativ sayt, maliyyə və sosial hesabatların dərc edilməsi, relizlərin yayımlanması, korporativ qəzetin nəşri, telefon mərkəzi, açıq elektron poçt vasitəsi aparılır. Sosial hesabatların hazırlanmasını bu zaman maraqlı tərəflərlə yeni əlaqə kommunikasiya növü kimi qiymətləndirmək olar. Həmçinin qeyd etmək lazımdır ki, Bankda daxil olan müştəri şikayətlərin qeydə alınması və araşdırılması mexanizmi fəaliyyət göstərir. Hər bir müştəri xüsusi "Qaynar xətt" (5555) vasitəsi ilə öz təklif və iradlarını "Unibank" ASC-nin məsul şəxslərinin diqqətinə çatdıra bilər.

Xidmətlərin genişlənməsi ilə bərabər onların göstərilməsi zamanı keyfiyyət amillərinə arxalanma prinsipi "Unibank" üçün çox vacibdir. Bu səbəbdən Bank fərdi və korporativ müştərilərə xidmət keyfiyyətinin artırılmasını başlıca hədəf kimi daima diqqətdə saxlayır, yeni cəlb olunan əməkdaşlar arasında xüsusi təlimlər aparır, işçilərin qiymətləndirilməsi və attestasiyasını keçirir, digər tərəfdən isə müştərilər arasında geniş imkanlar verən loyallıq proqramları tətbiq edir. Xidmət və prosedurların təkmilləşdirilməsi məqsədi ilə yaxın gələcəkdə Mərkəzi ofis və filiallarda xidmət keyfiyyətinin on-layn monitorinq sisteminin quraşdırılması nəzərdə tutulub. Müştərilərin loyallığı naminə front-ofis əməkdaşlarının qiymətləndirilməsində əsas amillər kimi onların çevikliyi, fərdi yanaşmaları və Bankın məhsulları barədə tam aydın məlumatların çatdırmaq qabiliyyətləri nəzərə alınır.

Daxili inkişaf, istedadlı əməkdaşların dəstəklənməsi və xüsusi kadr ehtiyatının formalaşdırılması "Unibank"-ın İnsan Resursları bölməsinin prioritetlərini təşkil edir. Məsuliyyətli iş təminatçısı kimi Bank ötən il 245 yeni mütəxəssis cəlb edib. İşə cəlb olunan əməkdaşlar xüsusi təlimlərdən keçib. Bundan başqa, bankdaxili attestasiyalar nəticəsində aparılan rotasiyalar nəticəsində 120 nəfər əməkdaşın vəzifələri və

# Korporativ məsuliyyət

əmək haqları artırılıb. İşçilərin daxili karyera inkişafını menecer və supervayzer vəzifələrinə 24 sıravi əməkdaşın təyin olunması təsdiqləyir. Bundan başqa, 2011-ci ildə ənənəvi "İşçi məmnunluğu" mövzusunda sorğu təşkil olunub. Anonim əsaslarda keçirilən sorğunun nəticələri işçilərin əksər hissəsində korporativ ruhun yüksək olmasını göstərib. Bu kimi tədbirlər heç şübhəsiz ki, korporativ mədəniyyət və dəyərlərin möhkəmlənməsinə gətirir. Korporativ mədəniyyət isə yüzlərlə peşəkardan ibarət "Unibank" komandasını birləşdirən amillərdəndir. İşçilərdə loyyalıq, motivasiya və ən əsası uğurlu gələcəyə inam yaradan korporativ mədəniyyət Azərbaycan lider banklarından birində çalışan vətəndaşların cəmiyyətdə də birgə mövqelərdə olmasına xidmət edir.

Qeyd edək ki, 2011-ci ildə Bankda korporativ mədəniyyət əsasən daxili kommunikasiyalar hesabına inkişaf edib. Bu vasitələr sırasında korporativ qəzetin nəşri və yayımlanması, İntranetdə qurulan uniportal-ın təkmilləşdirilməsi, birgə təlimlərin keçirilməsi, rotasiyalar, team-building, "UniIdea" müsabiqəsini, himnin səslənməsi, birgə bayram şənlikləri və digər tədbirləri qeyd etmək olar. Ötən ilin iyul-oktyabr aylarında Bankda «Zolotaya Korana» təcili pul köçürmələri sistemi ilə birgə xüsusi motivasiya aksiyası keçirildi. Bu aksiyada müştərilərin təcili pul köçürmələri üzrə əməliyyatlar aparan Bankın bütün filial əməkdaşları iştirak ediblər. Əsas meyar köçürmələrin sayı idi və fərqlənən 9 əməliyyatçıya 300, 200 və 100 manat dəyərində olan alış-veriş üçün xüsusi sertifikatlar təqdim olundu. Bundan başqa, 2011-ci ildə "Unibank"-da "Yeni İDEA" layihəsinə start verildi. Əməkdaşların təşəbbüsünü dəstəkləyən Bank rəhbərliyi, hər bir ideyaların göndərilməsi, toplanması və öyrənilməsi üçün xüsusi sistem yaradılmışdır. "Yeni İDEA" layihəsi Bankın struktur bölmələrinin işinin təkmilləşdirilməsi, müştəri xidmətinin yaxşılaşdırılması, məhsul xəttinin genişləndirilməsi məqsədilə irəli sürülmüş müxtəlif xarakterli səmərələşdirici təkliflərin qeydə alınmasına və təhlil olunmasına yardım etdi. Bir nəticə kimi bu layihə çərçivəsində il ərzində onlarla əməkdaşdan 200 yaxın təklif və ideyalar irəli sürülmüş, onlardan bir neçəsi isə artıq həyata keçirilir.

"Unibank" ənənəvi olaraq iqtisadi profilli fakultələrdə təhsil alan tələbələr və gənc mütəxəssislərlə əməkdaşlıq edir. Bank tərəfindən 2011-ci ildə təsis olunan "UniŞans" təqaüdü ali təhsil müəssisələrə ən yüksək ballarla daxil olan 10 nəfər tələbələrə ödənilir. Gənclərin seçimi universitetlərdə açıq elan olunan müsabiqə əsasında aparılıb. Hər bir seçilən tələbəyə iki il ərzində 100 AZN məbləğində təqaüd ödəniləcək. "UniŞans" müsabiqəsində qalib gələn tələbələr seçdikləri peşələrində təcrübə toplamaq üçün Bankın bir çox bölmələrində təcrübəkeçmə proqramlarda iştirak edəcəklər. Bununla bərabər, hər bir "UniŞans" təqaüdçüsü "Unitraining" korporativ təhsil mərkəzində təşkil olunan bir sıra təlim proqramlarına cəlb olunacaq.

Yeniyetmələr və gənclərlə iş çərçivəsində «Unibank» yetkinlik yaşına çatmayanlar üçün bank əməliyyatları üzrə xüsusi prosedur və qaydalar hazırlayıb. Bu sənədlər Mülki Məcəlləyə əsaslanaraq, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli qərarlarına müvafiq tərtib olunub. Nəticədə hesabların açılması və vəsaitlərin köçürülməsi kimi əməliyyatlar artıq 14 yaşından 18 yaşınadək olan yeniyetmələr tərəfindən aparıla bilər. Bunun üçün onların qanuni nümayəndələri - valideynləri və himayəçilərinin yazılı razılığı kifayətdir. Eyni zamanda, 16 yaşı tamam olan gənclər də əmək müqaviləsi üzrə işlədikləri və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları təqdirdə müstəqil şəkildə bank əməliyyatı apara bilərlər.

Ötən tədris ili ərəfəsində maddi cəhətdən məhdudiyyətlərlə üzləşən ailələr üçün "Unibank" məktəb çantaları, dəftərxana ləvazimatı və şagird formasının alınmasını təşkil etdi. Korporativ sosial məsuliyyət proqramları çərçivəsində Bank "Birliyə doğru" qeyri-hökümət təşkilatı ilə birlikdə yardıma ehtiyac olan 25 ailə seçdi. Onlar sırasında tədris ili ərəfəsində maddi çətinlik Bank əməkdaşlarının ailələri və yaxınları da var idi. Hədiyyə alanlar sırasında bu il ilk dəfə 1-ci sinifə gedəcək uşaqlar çoxluq təşkil edirdi.

"Unibank" tərəfindən 2011-ci ildə dəstəklənən KSM layihələr arasında "Əli və Nino" Nəşriyyat evinin təsis etdiyi Milli Kitab Mükafatı xüsusi yer tutur. Mədəniyyət və turizm nazirliyinin rəsmi dəstəyi ilə təşkil olunan bu müsabiqədə Bank rəsmi sponsor oldu. Bununla "Unibank" müasir milli ədəbiyyatının inkişafına əhəmiyyətli pay verə biləcək bütün yazıçılara dəstək verdi. Ümumilikdə 8 ay dava edən Milli Kitab Mükafatı müsabiqəsi 2011-ci ilin iyun ayında sona çatdı. Nüfuzlu Münsiflər heyəti tərəfindən seçilən birinci mükafatın sahibi "Yad dildə" romanının müəllifi Pərviz Cəbrayıl oldu. Müsabiqədə ikinci mükafata "Şəhər meri" əsəri ilə yazıçı Məqsəd Nur, üçüncü yerə isə Nəriman Əbdürrəhmanlı və Natiq Rəsulzadə layiq görülüblər. MKM qaliblərinə pul mükafatları ilə bərabər sponsorların köməyi ilə müəllif olduqları əsərlərin çap olunması təmin olundu.

Yaranan gündən, "Unibank" Azərbaycan idmanının əsl dostudur. Bu dostluqda Bankın ən səmimi niyyətlərini Peşəkar Futbol Liqası ilə imzaladığı üç illik sponsor sazişi oldu. Nəticədə ölkədə milyonların sevdiyi futbol üzrə milli birincilik Unibank Premyer Liqası adı altında davam etdi. Sponsor öhdəliklərindən başqa, Bank Liqanın ən yaxşı oyunçularını mükafatlandırır. Hər ayın milli futbol qəhrəmanı isə aparıcı KİV-lərin redaktorları və futbol peşəkarların iştirakı ilə keçirilən sorğu zamanı seçilir. Qeyd etmək lazımdır ki, ötən il Azərbaycanda "Futbolla yaşa" şuarı altında keçib. Bu şuara dəstək olaraq, Bank müxtəlif peşəkar futbol klublarının azarkeşlərini stadionlara çağıran sosial yönümlü çarx hazırlayıb. Çarx və bu üslubda Bankın reklam konsepti 2011-ci ildə idman ictimaiyyəti və media tərəfindən müsbət qarşılanıb.

2011-ci ildə «Unibank»-ın və sponsor olduğu Peşəkar Futbol Liqasının nümayəndələri Şüvəlanda yerləşən sağlamlıq imkanları məhdud uşaqlar üçün fəaliyyət göstərən 12 saylı xüsusi İnternat-məktəbinin qonaqları oldular. Dünya Azərbaycanlılarının həmrəylik günü və Yeni il bayramı ərəfəsində Bank işçiləri və futbol peşəkarları orada təhsil və xüsusi idman hazırlığı keçən 133 uşaqlara hədiyyələr təqdim etdilər. Xüsusi Olimpiya oyunlarında və əlillər arasında müxtəlif beynəlxalq yarışlarda dəfələrlə uğurla iştirak edən internat-məktəbin bütün şagirdlərinə məşqlər və müalicəvi idman üçün vacib olan idman geyimi və ayaqqabıları, trenajorlar, toplar və digər zəruri idman ləvazimatı təqdim olundu. Eyni zamanda, Azərbaycan gənc tamaşaçılar teatrı aktyorlarının iştirakı ilə "Yolka şənliyi" keçirildi, internatın gənc futbol komandası üçün isə kiçik məşq təşkil olundu.

KSM sahəsindəki layihələrimiz sırasında Bankın 2012-ci il üçün hazırladığı təqvimlərdə gənc rəssamların əsərlərindən istifadə etdiyini qeyd etmək vacibdir. "EmArt" studiyasında incəsənət aiIəminə ilk addımlar atan balacalar, minlərlə "Unibank" müştərilərini təbiətə onların gözü ilə baxmağa dəvət edirlər. Maraqlıdır ki, gənc istedadların "Rənglər mənim dostumdur" şuarı altında təşkil etdikləri ilk sərginin sponsoru da 2011-ci ildə məhz "Unibank" oldu. Onların əsərləri əsasında çap edilən təqvimlər isə təkrar istifadə olunan kağızlarda nəşr edilib. Bununla, Bank təbiətin və uşaqların dostu olduğunu bir daha nümayiş etdirdi.



«Bank biznesinin nümayəndələri kimi biz biznesin cəmiyyətdəki əsas rollarından birini ətrafdakıların həyatının iqtisadi və sosial baxımından yaxşılaşdırılmasında görürük. Məhz buna görə "Unibank" öz sosial məsuliyyətini birbaşa fəaliyyətindən kənar olan, amma cəmiyyətdə insani dəyərləri formalaşdıran sahələrin inkişafı kimi qiymətləndirir»

**Faiq Hüseynov**
İdarə Heyətin sədri




## Azərbaycan respublikalarının pulları

Azərbaycan Demokratik Respublikası (nominal 5 min manat), Azərbaycan Sosialist Sovet Respublikasının (nominal 5 min və 1 mln. rubl) və Zaqafqaziya Sovet Sosialist Respublikasına (nominal – 1 mlrd.) məxsus əskinazlar, 1919-1924-cü illər.

# Törəmə müəssisələr

unicapital

**«Unicapital» ASC**

| | |
|---|---|
| Nizamnamə kapitalı | 200.000 AZN, |
| Qiymətli kağızların sayı | 100.000 əd. |
| Nominal dəyəri | 2,00 AZN |
| Bankın sahib olduğu qiymətli kağızların sayı | 100.000 əd., 100% |

2011-ci il ərzində Azərbaycanda 5081,3 milyon manatlıq qiymətli kağız buraxılışı qeydiyyata alınmışdır. Qiymətli kağızlar bazarının ümumi emissiyalarının 53,8% səhmlər, 9,4% dövlət istiqrazları, 26% Mərkəzi Bankın notları, 10,3% isə korporativ istiqrazlar təşkil etmişdir. Eyni zamanda, Azərbaycan fond bazarının korporativ qiymətli kağızlar seqmentində ən yüksək artım templəri müşahidə edilib. Dövr ərzində özəl sektorun qiymətli kağızlar bazarı vasitəsi ilə maliyyələşmə təşəbbüsləri genişlənib. Belə ki, il ərzində korporativ qiymətli kağızlar bazarında əməliyyatların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 13%, əməliyyatların həcmi isə 2,7 dəfə artaraq 2 144 milyon manat təşkil etmişdir. Korporativ qiymətli kağızlarla əməliyyatların 48% səhmlər, 52% isə korporativ istiqrazlar təşkil etmişdir.

Hesabat ili ərzində səhm bazarında əməliyyatların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 14%, əməliyyatların həcmi isə 2 dəfə artaraq 1029 milyon manat təşkil etmişdir. Korporativ istiqrazların ilkin və təkrar bazarı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,7 dəfə artaraq 1115 milyon manat təşkil etmişdir. Borc alətləri vasitəsi ilə maliyyələşmə imkanlarına marağın artması da müşahidə olunmuşdur. Belə ki, korporativ borc kağızlarının ilkin bazarında əməliyyatların həcmi 4 dəfə artaraq 584,7 milyon manat təşkil etmişdir.

Məcmu həcmi 523,4 mln. manat səviyyəsində olan korporativ istiqrazlar emissiyalarının 20,42% "Unicapital" şirkətinin payına düşür. Bankın investisiya şirkəti tərəfindən hesabat ilində korporativ istiqrazlar üzrə 11 emissiya təşkil edilib. Bu buraxılışların ümumi həcmi 106,9 mln. manata bərabər olan halda, istiqrazlar üzrə bağlanılan 67 əqdin həcmi bazarın müvafiq seqmentində qeydə alınan əqdlərin 20% çatıb. Əksər emissiyalar üzrə fond bazarında önəmli rol oynayan "PaşaBank"-la market-meykerlik barədə razılaşma əldə olunub və bununla da buraxılışların yerləşdirilməsi zamanı lazımi likvidlik təmin edilib. Bundan əlavə, səhm emissiyaları üzrə "Unicapital"-ın dövriyyəsi 2011-ci ildə 12,6 mln. manat tə.kil edib. Azərbaycan fond bazarında aparılan əməliyyatlar üzrə şirkət tərəfindən göstərilən broker və anderrayter xidmətləri hesabına əldə olunan gəlir 20,2% artaraq 53,5 min manatdan çox təşkil edib.



unileasing

**«Unileasing» QSC**

| | |
|---|---|
| Nizamnamə kapitalı | 1 800 000 AZN, |
| Qiymətli kağızların sayı | 900.000 əd., |
| Nominal dəyəri | 2,00 AZN |
| Bankın sahib olduğu qiymətli kağızların sayı | 600.000 əd., 66.67% |

2011-ci ilin nəticələrinə görə, Azərbaycanın lizinq sektorunun lideri öz lizinq portfelini 42 mln. ABŞ dollarına çatdırıb. İl ərzində məcmu məbləği 20 mln. ABŞ dollarına yaxın 226 lizinq sövdələşməsi imzalanıb. Nəticədə müsbət işgüzar nüfuz hesabına və əlverişli maliyyələşdirmə şərtlərinə görə şirkət 200 yeni müştəri cəlb edə bilib. Bu zaman portfel üzrə orta faiz dərəcəsi illik 20,1%-ə, lizinq sazişlərin orta müddəti isə - 45 ay təşkil edib.

Qeyd etmək lazımdır ki, lizinq portfelinin genişlənməsində şirkətin Şəki, Gəncə, Quba, Saatlı və Lənkəran ofisləri vacib rol oynayıblar. Belə ki, ötən il onların fəaliyyəti nəticəsində bölgələr üzrə lizinq portfeli 4 mln. ABŞ dollarına çatıb. Bu göstərici 2010-cu il ilə müqayisədə 67% artım nümayiş edib.

«Unileasing»-in maliyyələşdirilməsində başlıca rolu şirkətin təsisçiləri - «Unibank» ASC-ti və Avropa Yenidənqurma və İnkişaf Bankı oynayırlar. Bununla bərabər, 2011-ci ildə «Unileasing» qiymətli kağızların emissiyası hesabına vəsait cəlb etmişdir. Şirkət may ayının 31-də 5 milyon məbləğində faizli sənədsiz adlı istiqrazların Bakı Fond Birjasında yerləşdirilməsini başa çatdırdı. «Unicapital» şirkətinin anderraytinqliyi ilə may ayının 24-də Qiymətli kağızlar üzrə Dövlət Komitəsində (QKDK) qeydiyyatdan keçmiş və 5 min istiqraz həcmində olan bütün buraxılış yerləşdirilmişdir. İstiqrazların dövriyyə müddəti 540 gün, hər birinin nominalı - 1 000 AZN, faiz dərəcəsi isə illik 10% təşkil edir. Yerləşdirmədən əldə olunan vəsait korporativ və pərakəndə seqmentlərdə, konkret olaraq, xırda və orta biznes seqmentində, lizinq portfelinin artımına yönəldilib.

2011-ci il ərzində şirkət bir sıra yeni layihələr həyata keçirib, onlardan:
- «Qiymətlərin partlayışı» minik avtomobillərinin lizinqi üzrə;
- «Mercedes-Benz» markalı avtomobillərinin lizinqi üzrə xüsusi təklif;
- "İSUZU" kiçik tonnajlı yük maşınlarının lizinqi üzrə xüsusi təklif;
- NCR tipli bankomatlarının lizinqi;
- yaşayış və ticarət məqsədli daşınmaz əmlakın lizinqi və s. layihələri qeyd etmək olar.

"Unileasing" Qapalı Səhmdar Cəmiyyəti 2012-ci ili bir sıra layihələrin tətbiqi üçün perspektivli dövr kimi qiymətləndirir və bu səbəbdən lizinq portfelinin $8-10 milyon artırılmasını və bu rəqəmin $53 milyona çatdırılmasını planlaşdırır.

Xatırladaq ki, şirkət GAAP standartlarına uyğun olaraq hesabatlar aparır və hər il Deloitte&Touche və PricewaterhouseCoopers kimi ən böyük dünya auditor şirkətləri tərəfindən auditdən keçir.